3 mart 2023 №17 (1986)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Mədəniyyət nazirinin yeni müavinləri, Dövlət Xidmətinin yeni rəisi təyin olunub

Prezident İlham Əliyevin martın 1-də imzaladığı sərəncamlarla Murad Fərid oğlu Hüseynov və Səadət Vidadi qızı Yusifova mədəniyyət nazirinin müavinləri təyin olunublar.

Dövlət başçısının daha bir sərəncamı ilə Səbinə Xalid qızı Hacıyeva Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi təyin edilib.

səh. 2

## "Heydər Əliyev İli" tədbirləri davam edir

Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Heydər Əliyev və mədəniyyət" mövzusunda dəyirmi masa keçirilib.

Bölgələrdəki mədəniyyət müəssisələrində də "Heydər Əliyev İli" ilə bağlı müxtəlif səpkili tədbirlər təşkil olunub.

səh. 3, 4

## Daşkənddə Azərbaycan-Özbəkistan Dostluq muzeyi



Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan-Özbəkistan Dostluq muzeyinin açılışı keçirilib.

Muzeydə iki xalqın ortaq dəyərlərini, mədəni irsini əks etdirən stendlər, guşələr, maketlər, geyimlər, milli musiqi alətlərimiz və digər eksponatlar sərgilənir. "Özbəkistanda tanınmış azərbaycanlılar" bölməsində qardaş ölkənin ictimai-mədəni həyatında fəal iştirak etmiş Seyid Rza Əlizadə, şairlər Maqsud Şeyxzadə, İxtiyar Rza, dövlət xadimi Aydın Əzimbəyov, heykəltəraş Eynulla Əliyev, rəssam Yusif Hüseynovun büstləri, onların əsərləri və şəxsi əşyaları təqdim olunur.

səh. 3

## Pandemiya bitir?..

"Pandemiya bitir. İndi hər bir ölkə öz üzərinə düşəni etməli, gələcək pandemiyalara hazırlıqlı olmalı və pandemiyadan sonrakı bərpada iştirak etməlidir".

Bunu Bakıda Qoşulmama Hərəkatının (QH) COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşünə videoformatda qoşulan Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus deyib.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini və bu dövrdə COVID-19-a qarşı mübarizəyə töhfələrini yüksək qiymətləndirən baş direktor bütün ölkələri bu kollektiv səyləri öyrənməyə çağırıb.

Qeyd edək ki, Dünya Səhiyyə Təşkilatı tərəfindən koronavirusla bağlı pandemiya vəziyyəti rəsmən 2020-ci il martın 11-də elan olunub.

## Beynəlxalq Qadınlar Günü münasibətilə sərgi




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı və Bakıdakı Rus evinin dəstəyi ilə martın 6-da "Harmoniya" adlı qrup sərgisi keçiriləcək.

Bakıdakı Rus evinin sərgi salonunda açılacaq sərgi 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunub.

səh. 7

# Dünya düzəni yenidən formalaşmaqdadır

### Azərbaycan Prezidenti: BMT Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməli, coğrafi baxımdan daha ədalətli olmalı, Qoşulmama Hərəkatına daimi yer verilməlidir

Martın 2-də Bakıda Qoşulmama Hərəkatının (QH) COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirilib. Bakı Konqres Mərkəzində keçirilən zirvə görüşünə 70-ə yaxın ölkənin nümayəndələri, o cümlədən 5 ölkənin – Bosniya və Herseqovina, Türkmənistan, Özbəkistan, İraq, Liviyanın prezidentləri, üç ölkənin – Kuba, Qabon və Tanzaniyanın vitse-prezidentləri, Əlcəzair və Keniyanın baş nazirləri, həmçinin Dünya Turizm Təşkilatının baş katibi, Beynəlxalq Miqrasiya Təşkilatının, BMT-nin Cenevrədəki Bölməsinin baş direktorları, İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi, nazirlər, nazir müavinləri, səfirlər qatılıblar.

Dünyanın 120 ölkəsi arasında əməkdaşlıq əlaqələrinin qurulması və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatına Azərbaycan 2019-cu ildən sədrlik edir. 60 ildən artıq tarixə malik və əhatə dairəsinə görə BMT-dən sonra dünyanın ikinci böyük təsisatı sayılan qurum məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Azərbaycanın sədrliyinin böyük uğurlarından biri QH-nin təsisatlanması məsələsidir. Ölkəmizin sədrliyi dönəmində QH-nin Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olunub.

Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Təsadüfi deyil ki, 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb. Üzv ölkələrin Azərbaycana tam etimadının nəticəsidir ki, ölkəmizin təşkilata sədrliyi daha bir il, yəni 2023-cü ilin sonuna kimi uzadılıb.

Prezident İlham Əliyev zirvə görüşünü açaraq xatırladıb ki, üç ildən bir qədər çox əvvəl elə həmin bu zalda Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul edib: "Qürurla deyə bilərəm ki, Hərəkat son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm aktorlardan biri olub".

Müzakirələrə başlamazdan əvvəl Azərbaycanın dövlət başçısının təklifi ilə iştirakçılar 6 fevralda Türkiyədə və Suriyada baş verən dağıdıcı zəlzələnin qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla anıblar.



Sonda zirvə görüşünün gündəliyi təsdiq edilib.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi sammitdə çıxış edib.

Azərbaycanın Qoşulmama Hərəkatına 2019-2022-ci illər üzrə sədrliyinin daha bir il uzadılmasına görə iştirakçı ölkələrə minnətdarlığını ifadə edən İlham Əliyev bildirib ki, Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu. Azərbaycan 2020-ci ilin mayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdü: "Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı. Xüsusi sessiya 2020-ci ilin dekabr ayında keçirilib və tədbirdə 70-dən çox dövlət və hökumət başçısı çıxış edib. Xüsusi sessiyada beynəlxalq həmrəyliyin artırılmasının zəruriliyi vurğulanıb, Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyi qəbul edilib".

Bəzi varlı ölkələrin həyata keçirdiyi "peyvənd millətçiliyi"nə toxunan Azərbaycan Prezidenti vurğulayıb ki, Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu. Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini daha nümayiş etdirdi.

Azərbaycanın əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərdiyini deyən İlham Əliyev bildirib ki, ölkəmiz QH-nin institusional inkişafına güclü dəstək verir. Azərbaycanın təşəbbüsü ilə QH Parlament Şəbəkəsinin ilk iclası 2022-ci ilin iyununda Bakıda keçirilib. Bundan başqa, 2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək. "Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır", – deyə dövlət başçısı bildirib.

### "Soyuq müharibə"dən sonra ən ciddi qlobal qarşıdurmanın şahidiyik

Azərbaycan Prezidenti qeyd edib ki, son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturası hazırda köklü dəyişikliklərlə üzləşir və multilateralizm təhlükə altındadır. Beynəlxalq hüququn norma və prinsiplərinin aşınması beynəlxalq düzəni daha da təhdid edir. Suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə halları daha çox müşahidə olunmaqdadır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir.

davamı səh. 2-də

## "Min bir gecə" yenə heyran edib

### Fikrət Əmirovun ecazkar musiqisi və Eldar Əliyevin xoreoqrafiyası

Sankt-Peterburqun Mariinski Teatrının yeni səhnəsində teatrın Primorsk filialı (Vladivostok) balet truppasının növbəti qış qastrol proqramında dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baletinin tamaşalarının təqdimatı böyük əks-səda yaradıb.

21 fevral – 2 mart tarixlərində gerçəkləşən qış qastrol proqramında "Min bir gecə" üç dəfə nümayiş olunub. Baletin budəfəki nümayişləri Mariinski Teatrının direktoru və bədii rəhbəri, görkəmli dirijor Valeri Gergiyevin dəvəti ilə təşkil olunub.

Fikrət Əmirovun möhtəşəm əsəri ilə bərabər Mariinski Teatrının tarixi və yeni səhnələrində P.Çaykovskinin "Şelkunçik" və A.Adanın "Korsar" baletlərinin tamaşası da böyük sənət bayramına çevrilib. Bütün tamaşalar



məşhur azərbaycanlı xoreoqraf, Rusiyanın Əməkdar incəsənət xadimi, teatrın baş baletmeysteri Eldar Əliyevin quruluşunda göstərilib.

Qastrolun ən yaddaqalan hadisələrindən biri kimi qeyd olunan "Min bir gecə" baletinin bütün tamaşaları tam anşlaqla keçib və Sankt-Peterburqun balet həvəskarları tərəfindən sürəkli alqışlarla qarşılanıb. Tamaşalarda Mariinski Teatrının simfonik orkestri və xoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə çıxış edib. Baletdə əsas rolları Sergey Umanets, Liliya Berejnova, Renata Şakirova, Arina Naqase, Viktor Mulıgin, Saki Nisida və Qulyelmo Junio ifa ediblər.

Tamaşanın musiqisində xüsusi yeri olan tar partiyasını Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Ramin Əzimov və Nadejda Medvedeva səsləndiriblər. Solo soprano bölümünü Anastasiya Kikot böyük məharətlə təqdim edib.

## Qarabağdakı erməni əhali ilə praktik təmaslar başlanır

Xəbər verildiyi kimi, Milli Məclisin deputatı Ramin Məmmədov Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs qismində müəyyən edilib.

Martın 1-də Ramin Məmmədov Xocalı şəhərində, Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin qərargahında Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüşüb. Görüşdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" QSC-nin mütəxəssislərindən ibarət təbii sərvətlərin qanunsuz istismarını araşdıran monitorinq qrupunun rəhbəri Məsim Məmmədov da iştirak edib.

Görüş zamanı Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan Respublikasına reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb.

davamı səh. 4-də

Musiqiləri ilə könüllərdə yaşayan...



səh. 5

"Ciddi ədəbiyyat təbliğ edilməlidir"

Xalq yazıçısı Anarla yubiley söhbəti

səh. 6



Bakı Dövlət Sirkində "DZİVA" şousu

səh. 8

№17 (1986)
3 mart 2023
www.medeniyyet.az




# Dünya düzəni yenidən formalaşmaqdadır

## Azərbaycan Prezidenti: BMT Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməli, coğrafi baxımdan daha ədalətli olmalı, Qoşulmama Hərəkatına daimi yer verilməlidir

*əvvəli səh. 1-də*

Dövlət başçısı vurğulayıb ki, bu gün dünya düzəni yenidən formalaşmaqdadır: "İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir.

Təəssüf ki, bu gün biz neokolonializm meylinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir".

### Fransa müstəmləkə cinayətlərinə görə üzr istəməlidir

İlham Əliyev diqqətə çatdırıb ki, Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləyib: "Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq".

Azərbaycan Prezidenti qeyd edib ki, dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir: "Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun. Bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Mən Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamağa və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməyə çağırıram. Biz Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikrini dəstəkləyirik".

### Azərbaycan ilk dəfə BMT qətnamələrinin icrasını özü təmin etdi

Prezident vurğulayıb ki, BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil. Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmayıb: "2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi".

Dövlət başçısı nəzərə çatdırıb ki, işğal illəri ərzində Azərbaycanın yüzlərlə şəhər və kəndi Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılıb, bütün mədəni və dini abidələr talan və qarət edilib. Azərbaycanın işğaldan azad olunmuş əraziləri klassik urbisid, kultursid və ekosid nümunələridir. 2020-ci ilin sonundan etibarən Qoşulmama Hərəkatına üzv ölkələr də daxil olmaqla, bir çox ölkədən minlərlə xarici diplomat, jurnalist, QHT üzvü və siyasətçi işğaldan azad olunmuş əraziləri ziyarət edərək Ermənistan tərəfindən törədilmiş vəhşiliklərin şahidi olub: "Azərbaycan işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan hökuməti 2021-2022-ci illərdə yenidənqurma işlərinə 4 milyard ABŞ dollarına yaxın pul xərcləyib. Bu il biz bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsait ayırmağı planlaşdırırıq. Biz müasir şəhərsalma – "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarından istifadə edərək yeni şəhər və kəndləri sıfırdan yaradırıq. Bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf və yenidənqurma modelidir".

Prezident daha sonra deyib: "Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır. Ölkə üçün humanitar minatəmizləmənin böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik.

Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, mən səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif etmək istəyirəm".

Dövlət başçısı diqqətə çatdırıb ki, münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib: "Bu fürsətdən istifadə edərək mən Qoşulmama Hərəkatına üzv ölkələrə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə, həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan verməməkdə göstərdikləri qətiyyətə görə təşəkkür etmək istəyirəm.




Sonda isə sizi əmin etmək istəyirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin güclənməsi üzrə səylərini əsirgəməyəcəkdir".

***

Daha sonra BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya çıxış ediblər. Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun videomüraciəti dinlənilib. Çıxış edənlər Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırıblar.

Tədbir plenar sessiya ilə davam edib.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev qeyd edib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Şavkat Mirziyoyev bir sıra təşəbbüslər irəli sürüb, o cümlədən Qoşulmama Hərəkatının monitorinq və elmi tədqiqatlar üzrə xüsusi şəbəkəsinin yaradılmasını da təklif edib.

İraq Prezidenti Əbdüllətif Camal Rəşid qlobal pandemiya böhranından sonrakı dövrdə infrastrukturun və xidmətlərin təkmilləşdirilməsinin, qida təhlükəsizliyinin təmin olunmasının vacibliyini diqqətə çatdırıb.

Liviya Dövləti Prezident Şurasının Sədri Məhəmməd Yunis əl-Mənfi bütün dövlətləri Liviyada davam edən münaqişənin həllinə və bu ölkənin inkişafına dəstək verməyə çağırıb.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov koronavirus pandemiyasının nəticələrinin bütün ölkələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafına ciddi təsir göstərdiyini vurğulayaraq pandemiyanın nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətlərin öz səylərini birləşdirməsinin önəmini qeyd edib.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç pandemiyanın uzunmüddətli mənfi təsirlərə, xüsusilə yoxsul ölkələrdə daha mürəkkəb tənəzzülə səbəb olduğunu qeyd edib. Bildirib ki, böyük çağırışlar var, çətinliklər heç də azalmayıb, yaxud da yox olmayıb. Bu səbəbdən sammit dünya ictimaiyyətinin diqqətini postpandemiya dövründə bərpa proseslərinə cəlb etməlidir.

***

Zirvə görüşü Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun sədrliyi ilə plenar sessiyalarla davam edib.

Sonda zirvə görüşünün yekunlarına dair sənəd qəbul olunub.

## M.F.Hüseynovun Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Murad Fərid oğlu Hüseynov Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 mart 2023-cü il**

## S.V.Yusifovanın Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Səadət Vidadi qızı Yusifova Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 mart 2023-cü il**

## S.X.Hacıyevanın Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Səbinə Xalid qızı Hacıyeva Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 mart 2023-cü il**

## V.Q.Əliyevin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Vaqif Qadir oğlu Əliyev Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 mart 2023-cü il**

## S.Y.Məmmədəliyevanın Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Sevda Yusuf qızı Məmmədəliyeva Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 mart 2023-cü il**

## A.M.Cəfərlinin Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azad Məhyəddin oğlu Cəfərli Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 mart 2023-cü il**

## "Gənclərə dəstək" layihəsində konsert



Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsi çərçivəsində növbəti konsert proqramı Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

Fevralın 28-də Kamera və orqan musiqisi zalında keçirilən konsert proqramında gənc violin ifaçısı, respublika və beynəlxalq müsabiqələr laureatı Elmira Dadaşova (Əməkdar müəllim İlhamə Ağayevanın yetirməsi) çıxış edib. Onu fortepianoda beynəlxalq müsabiqələr laureatı Arzu Səfərova müşayiət edib.

Proqramda Avropa və Azərbaycan bəstəkarlarının əsərləri ifa olunub.

## Uşaq yazarı kitabxanada oxucularla görüşüb

Martın 1-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında uşaq yazarı Solmaz Amanovanın kiçikyaşlı oxucularla görüşü keçirilib.



Yazıçı məktəblilərə "Şuşanın sehrli açarları", "Cəsur ayı və dostları", "İlmənin macəraları" və digər kitabları haqqında ətraflı məlumat verib, Azərbaycan xalqının şanlı tarixi, vətən uğrunda qəhrəman övladlarımızın apardığı mübarizələr, qədim diyarımız Qarabağ, mədəniyyət beşiyimiz Şuşa haqqında söz açıb.

Görüşdə Solmaz Amanovanın kitablarının elektron versiyası, əsərlərinə çəkilmiş animasiyalar və kitabları əsasında hazırlanmış interaktiv oyunlar da oxuculara təqdim edilib. Məktəblilər müəllifin sözlərinə bəstələnmiş mahnını ifa ediblər.

## Gəzib-görməli Azərbaycan

### Turizm imkanlarımız tanıdılıb

Azərbaycan Turizm Bürosunun təşkilatçılığı, 10 yerli turizm sənayesi nümayəndəsinin iştirakı ilə turizm imkanlarımız Körfəz ölkələrində təbliğ edilib.

Dövlət Turizm Agentliyindən bildirilib ki, fevralın 27-dən martın 2-dək Səudiyyə Ərəbistanının Ər-Riyad, Omanın Muskat, Qətərin Doha, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərlərində silsilə tədbirlər keçirilib. Tədbirlərdə həmin ölkələrin ümumilikdə 200-dən çox turizm sənayesi təmsilçisi iştirak edib və onlar Azərbaycanda təklif olunan turizm məhsulları, səyahət paketləri, ölkəyə səyahət şərtləri ilə tanış ediliblər.

Azərbaycanı təmsil edən turizm sənayesi nümayəndələri ilə ev sahibi ölkələrin sənaye nümayəndələri arasında B2B formatlı görüşlər keçirilib.

Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilmiş təqdimat tədbiri "FlyNas", Doha və Dubayda keçirilən tədbirlər isə "FlyDubai" tərəfindən dəstəklənib.

Qeyd edək ki, 2022-ci ildə Səudiyyə Ərəbistanı, Oman, Qətər və BƏƏ-dən Azərbaycana 160 minə yaxın insan səfər edib. Bu il üzrə ölkəmizə gələn əcnəbilərin 11,5 faizini təşkil edir.

# "Heydər Əliyev və mədəniyyətimiz"

## Mədəniyyət ocaqlarında tədbirlər

Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə fevralın 27-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Heydər Əliyev və mədəniyyət" mövzusunda dəyirmi masa keçirilib.

Teatrın direktoru Naidə İsmayılzadə, teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, Səbail rayon YAP təşkilatının sədri Muxtar Nağıyev, teatrşünaslar – sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov, Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru Ülkər Talıbzadə, yazıçı-dramaturq İlqar Fəhmi, Xalq artisti Yasin Qarayev, Əməkdar artist Nicat Kazımov və digər çıxış edənlər Heydər Əliyevin incəsənətə, teatra, ümumilikdə yaradıcı insanlara olan qayğısından söz açıblar.

Vurğulanıb ki, Heydər Əliyev mədəniyyətimizin böyük hamisi idi və Azərbaycana rəhbərliyinin hər iki dövründə teatr sənətinin də inkişafına böyük diqqət ayırır, premyeralara gəlir, bu sahədə yaradıcılıq prosesi ilə maraqlanır, dəyərli tövsiyələrini verirdi.

Çıxış edənlər Ulu öndərlə bağlı xatirələrini, bu xatirələrin yaratdığı xoş təəssüratları bölüşüblər.

***

Martın 1-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyində "Heydər Əliyev və mədəniyyətimiz" silsiləsindən növbəti tədbir keçirilib. Tədbirin qonağı bəstəkar, Azərbaycan Milli Konservatoriyasının professoru, Əməkdar incəsənət xadimi Məmmədağa Umudov olub.







Görüş zamanı bəstəkarın həmkarları, sənət dostları – Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xatirə Həsənzadə, professor, Əməkdar incəsənət xadimi Arif Əsədullayev, bəstəkar, Xalq artisti Elnarə Dadaşova onun yaradıcılığı haqqında çıxış edib, ürək sözlərini bölüşüblər.

Tədbirdə Məmmədağa Umudovun müəllifi olduğu "Alətşünaslıq. Simfonik orkestr alətləri", "Qələbəyə doğru... Marş" və "Tövsiyələr" kitablarının təqdimatı keçirilib.

Bədii hissədə Azərbaycan Milli Konservatoriyasının müəllim və tələbələrinin ifalarında Məmmədağa Umudovun "Heydər Əliyev İli"nə ithaf etdiyi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

Sonda Məmmədağa Umudov iştirakçılara və tədbiri təşkil edən muzey əməkdaşlarına minnətdarlığını bildirib.

# Azərbaycan-Özbəkistan Dostluq muzeyi yaradılıb




Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan-Özbəkistan Dostluq muzeyinin açılışı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə AMM-in önündə Heydər Əliyevin büstünün qarşısına gül-çiçək dəstələri qoyublar. Sonra açılış lenti kəsilib, qonaqlar muzeylə tanış olublar.

AMM-in direktoru Samir Abbasov muzey haqqında məlumat verib, xalqlarımız, dövlətlərimiz arasında tarixi dostluq və qardaşlıq əlaqələri barədə danışıb. Ulu öndər Heydər Əliyevin ölkələrimiz arasında dostluq və əməkdaşlığın qurulmasında müstəsna xidmətləri olduğunu qeyd edən AMM-in direktoru məhz bu səbəbdən muzeyin açılışının Azərbaycan xalqının Ümummilli liderinin 100 illik yubileyinə həsr edildiyini vurğulayıb. Deyib ki, muzeydə Azərbaycan və Özbəkistanın tarixi dostluğu, ümumi dəyərlərimiz, dövlət rəmzlərimiz, xəritələr, milli mədəni irsimiz, xalqlarımızın yaxınlığını əks etdirən guşələr, eksponatlar, maketlər və nəşrlər yer alıb.

Özbəkistanın millət vəkili Gülbahar Səidqəniyeva Azərbaycan və özbək xalqları arasında tarixi dostluğun bu gün intibah dövrünü yaşadığını söyləyib.

Özbəkistan Nazirlər Kabineti yanında Beynəlxalq Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsinin sədr müavini Azamat Toşov ölkələrimizin çoxmillətli və çoxmədəniyyətli olduğunu qeyd edərək insanların qarşılıqlı hörmət, dinc, mehribanlıq və tolerantlıq prinsipi ilə yaşamasından fəxrlə söz açıb. O, muzeydə Özbəkistanda tanınmış azərbaycanlıların büstlərinin qoyulması, onlara dair xüsusi bölümün yaradılmasını təqdirəlayiq hal kimi dəyərləndirib.

Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru Gülçöhrə Rixsiyeva Şerzodxan Qudratxoca yeni açılan muzeyin iki qardaş xalq arasında qədim dövrdən başlayan mədəni-ədəbi əlaqələrin, dostluq münasibətlərinin, çoxsaylı ortaq dəyərlərimizin, adət-ənənlərimizin əyani vəsaitlərlə, unikal eksponatlarla və guşələrlə nümayiş etdirdiyini bildiriblər.

Özbəkistan Dövlət Tarix Muzeyinin direktoru Cənnət İsmayılova yüksək muzeyşünaslıq zövqü və yaradıcılıq şövqü ilə qurulmuş muzeyin bir model kimi gələcəkdə yeni muzeylərin yaradılmasında tətbiq edilməsinin faydalı olacağını qeyd edib.

Qeyd edək ki, muzeydə iki ölkənin prezidentləri İlham Əliyevin və Şavkat Mirziyoyevin görüşləri, onların xalqlarımızın tarixi dostluq və qardaşlığı haqqında fikirləri, Azərbaycanın 2020-ci ilin Vətən müharibəsindəki Zəfərini əks etdirən fotolardan ibarət stendlər qurulub. Muzeydə iki xalqın ortaq dəyərlərini, mədəni irsini əks etdirən stendlər, guşələr, maketlər, geyimlər, milli musiqi alətlərimiz və digər eksponatlar sərgilənir. "Özbəkistanda tanınmış azərbaycanlılar" bölməsində qardaş ölkənin ictimai-mədəni həyatında fəal iştirak etmiş Seyid Rza Əlizadə, şairlər Maqsud Şeyxzadə, İxtiyar Rza, dövlət xadimi Aydın Əzimbəyov, heykəltəraş Eynulla Əliyev, rəssam Yusif Hüseynovun büstləri, onların əsərləri və şəxsi əşyaları təqdim olunur.





# "Unudulmayanlar"da xanəndə Səttar yad olunub

Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Unudulmayanlar" layihəsi davam edir. Layihənin fevralın 27-də reallaşan növbəti təqdimatı XIX əsrdə yaşayıb-yaratmış xanəndə Səttarın həyat və yaradıcılığına həsr olunub.




Tədqiqatçı-alim, filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlı Azərbaycan muğam ifaçılığında iz qoyan xanəndənin sənət yolu haqqında məlumat verib. Bildirilib ki, musiqişünas Firidun Şuşinski öz məqaləsində Səttarın sənətkarlığını yüksək qiymətləndirib. Musiqişünas bu barədə yazır: "...Səttarın konsertlərində Tiflisdə yaşayan rus və italyan musiqi həvəskarları iştirak edir və özlərinin konsertlərinə qatılmaq üçün onu da dəvət edirdilər. 1847-ci ildə italyan skripkaçı Tiflis teatr orkestrinin dirijoru Malaqolli Səttarı xeyriyyə cəmiyyəti tərəfindən təşkil olunmuş konsertdə iştirak etməyə dəvət etmişdi. Konsertdə muğam oxuyan Səttar böyük müvəffəqiyyətlər qazanmışdı".

Səttar Tiflisin musiqi həyatında mühüm rol oynayıb. O, nəinki musiqi gecələrində, həm də açıq havada təşkil olunan konsertlərdə və ziyafətlərdə məlahətli səsi ilə çoxmillətli şəhərin sakinlərinə estetik zövq verib. Beynəlxalq konsertlərdə skripkaçı Miller ilə, müğənni Seymur-Şifflə birgə iştirak edib.

Xanəndə Səttar Tiflisin indiki "Nəbatat bağı"nda əvvəllər mövcud olan müsəlman qəbiristanlığında dəfn edilib.

Tədbir çərçivəsində BMM-in solistlərinin ifasında muğam və təsniflərdən ibarət konsert proqramı təqdim olunub.

**Lalə Azəri**

# Qazaxıstan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihələrinə dəstək verəcək

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda Qazaxıstan xarici işlər nazirinin müavini Kanat Tumışla görüş keçirilib.

Günay Əfəndiyeva qonağı salamlayaraq rəhbərlik etdiyi təşkilatın fəaliyyətindən, türk xalqların;n çoxəsrlik tarixinin, zəngin mədəniyyətinin təbliği məqsədilə dünyanın müxtəlif ölkələrində keçirilən və nəzərdə tutulan tədbirlərdən söz açıb.



Kanat Tumış Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən görülən işləri yüksək qiymətləndirib, təşkilatın türk ölkələri arasında əməkdaşlığa töhfələr verdiyini deyib. O, Qazaxıstanın Fond tərəfindən keçirilən layihələrə hərtərəfli dəstək verəcəyini bildirib.

Görüşdə Fondun yalnız türk dövlətləri ilə deyil, digər ölkələrlə də münasibətlərinin, digər beynəlxalq təşkilatlarla əməkdaşlığının önəmi qeyd edilib. Bu il Qazaxıstanda keçiriləcək Türk Dövlətləri Təşkilatının X Zirvə görüşünün əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, bu il Azərbaycanın və Türk dünyasının böyük oğlu Heydər Əliyevin 100 illiyi, türk təsəvvüfünün banisi Xoca Əhməd Yəsəvinin 930 illiyi, məşhur türk hökmdarı Sultan Beybarsın 800 illiyi kimi əlamətdar tarixlər təntənə ilə qeyd edilir.

Söhbət zamanı Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun üzv və müşahidəçi ölkələri ilə Qazaxıstan arasında qarşılıqlı əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Əməkdaşlıq memorandumu imzalanıb

Xəbər verdiyimiz kimi, Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun (ÖDİMİ) nümayəndə heyəti Bakıya səfər edib. Nümayəndə heyətinin ali təhsil müəssisələrində görüşlərində əməkdaşlıq məsələləri müzakirə olunub, memorandumlar imzalanıb.



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) da Özbəkistanın institutu ilə əməkdaşlıq edəcək. Bununla bağlı AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və ÖDİMİ-nin rektoru Eldor Şermanov tərəfindən memorandum imzalanıb.

İsa Həbibbəyli AMEA-nın Özbəkistanın elm və təhsil ocaqları ilə sıx əlaqələrinin mövcud olduğunu deyib. Qeyd olunub ki, iki ölkən alimlərinin birgə təşkilatçılığı ilə beynəlxalq konfranslar keçirilir. Həmçinin AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində Əlişir Nəvai Mərkəzi fəaliyyət göstərir, Əlyazmalar İnstitutunda isə dahi şairin zəngin əlyazmaları qorunur.

Eldor Şermanov bildirib ki, mədəniyyət amili xalqların birləşməsində mühüm rol oynayır və rəhbərlik etdiyi qurum AMEA ilə əlaqələrin qurulması və genişləndirilməsinə xüsusi əhəmiyyət verir. Rektor ÖDİMİ-nin nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb, əməkdaşlıq memorandumunun birgə konfransların təşkili, layihələrin həyata keçirilməsi və kadr hazırlığı işinə öz töhfəsini verəcəyini vurğulayıb.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun baş direktoru müxbir üzv Ərtegin Salamzadə Özbəkistanın bir sıra qurumları, o cümlədən Rəssamlıq Akademiyası ilə əməkdaşlıq etdiklərini, birgə konfranslar keçirdiklərini söyləyib.

İmzalanma mərasimində qarşılıqlı hədiyyələr təqdim edilib, qonaqlar AMEA Rəyasət Heyətinin binası ilə tanış olublar.

# Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda struktur dəyişiklikləri

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun strukturuna daxil olan Tarixi etnoqrafiya, Müasir dövr etnoqrafiyası və Türk xalqlarının etnoqrafiyası şöbələri bundan sonra Folklor İnstitutunun bölmələri kimi fəaliyyət göstərəcək.



Bu barədə AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Elmi şurasının iclasında məlumat verilib. İnstitutun baş direktoru professor Abbas Seyidov bildirib ki, sözügedən şöbələr struktur və tədqiqat baxımından Folklor İnstitutuna daha uyğundur və müvafiq qərar qəbul olunub.

İnstitutda Atropatena dövrü arxeologiyası şöbəsinin yaradılması barədə müzakirələr gedib. Həmçinin Antropologiya Mərkəzinin tərkibində yeni Tarixi antropologiya sektorunun yaradılması barədə qərar qəbul olunub.

İclasda institutun keçirəcəyi Heydər Əliyevin 100 illiyinə həsr olunan konfransın gündəliyi, "Novruz ənənələri: qadın yaradıcı, qoruyucu və ötürücü kimi" mövzusunda konfrans və "Məhkəmə arxeologiyası və antropologiyası" adlı beynəlxalq elmi konfransa hazırlığın vəziyyəti müzakirə edilib.

# "Muzeydə Novruz macəraları"

Milli Azərbaycan Tarixi Muzeyində qarşıdan gələn Bahar bayramı münasibətilə "Muzeydə Novruz macəraları" adlı əyləncəli-maarifləndirici tədbirlərə başlanılıb.

Bu barədə muzeydən məlumat verilib. Bildirilib ki, tədbirlərdə gips fiqurları üzərində səməni rəngləmə, ustad dərsləri, kəndirdartma və digər əyləncəli oyunlar, müxtəlif proqramlar təşkil olunur.

Eyni zamanda uşaqlar muzeyin zəngin eksponatları ilə tanış olur, Hacı Zeynalabdin Tağıyevin Ev-Muzeyinə ekskursiya edirlər. 3-10 yaş arası uşaqlar üçün nəzərdə tutulmuş aksiya martın 17-dək davam edəcək.



Tədbirlərdə iştirak etmək üçün əvvəlcədən qeydiyyatdan keçmək lazımdır.

# Mədəniyyət nazirinin birinci müavini Biləsuvarda vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli tərəfindən 31 mart tarixində saat 10:00-da Biləsuvar şəhəri Heydər Əliyev Mərkəzində (Mübariz İbrahimov küçəsi 213) vətəndaşların qəbulu keçiriləcək. Qəbulda əsasən Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonlarından olan vətəndaşların müraciətləri dinləniləcək.

Vətəndaşlar 27 mart tarixinə qədər nazirliyin info@culture.gov.az elektron poçt ünvanı, (012) 493 30 02 telefon nömrəsi vasitəsilə və "WhatsApp" xidmətinə (0777 147 147) müraciət etməklə qəbula yazıla bilərlər.

# "Novruzun tarixi – çərşənbələr"

Oğuz rayon Qarabulaq kənd klubu tərəfindən açıq səma altında Novruz bayramının ikinci çərşənbəsi olan Od çərşənbəsində (28 fevral) "Novruz adət-ənənələri" adlı şənlik təşkil edilib. Şənlikdə tonqal yandırılıb, rəqslər ifa olunub, Novruza aid bayatılar söylənilib.

***



Neftçala rayon Mədəniyyət Mərkəzi Xolqaraqaşlı kənd Folklor evinin təşkilatçılığı ilə Od çərşənbəsinə həsr olunan bayram tədbiri keçirilib. Tədbirdə kənd inzibati ərazi nümayəndəliyinin əməkdaşları, şəhid ailələri və kənd sakinləri iştirak ediblər.

***

Şabran rayon Xaqani Poeziya evində "Novruzun tarixi – çərşənbələr" adlı tədbir keçirilib. Tədbirdə məktəblilər çərşənbələrə həsr olunan şeirlər səsləndiriblər. Daha sonra bayram haqqında qısametrajlı film nümayiş etdirilib.

# Qax kuklaçıları bayramda uşaqları sevindirəcək



Qax Dövlət Kukla Teatrı Novruz bayramı münasibətilə uşaqlar üçün maraqlı və əyləncəli proqram hazırlayır.

Teatrın baş rejissoru, Əməkdar artist Yusif Abdurahmanov bildirib ki, uşaqlar əvvəlcə Novruzun personajları olan Kosa və Keçəlin sərgüzəştlərinə, Bahar qızının rəqsinə tamaşa edəcək, əylənəcəklər. Sonra onlar Osman Abdullayevin "Sehrli torba" əsəri əsasında hazırlanan eyniadlı tamaşaya baxacaqlar. Novruz şənliyi kompozisiyasının quruluşçu rejissoru Rahib Məmmədov, rəssamı Mayis Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Teatrın yaradıcı kollektivi eyni zamanda 2023-cü ilin repertuar planına daxil edilən O.Abdullayevin "Tülkü və quyruq" əsərinin səhnələşdirilməsi üçün də hazırlıq işlərinə başlayıb.

# Ağalıda daha 20 evdə işıq yanacaq



2022-ci ildən məskunlaşması başlanılan Zəngilan rayonunun yenidən inşa edilən Ağalı kəndində daha 20 evdə işıq yanacaq.

Fevralın 28-də Abşeron rayonunun Masazır qəsəbəsindəki "Zəngilan" şəhərciyindən növbəti köç karvanı yola salınıb. Daha 10 ailə (50 nəfər) daimi məskunlaşmaq üçün Ağalıya yola düşüb.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl, Zəngilan rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin əməkdaşı Aqil Qurbanov bildirib ki, bu mərhələdə köç ümumilikdə 94 nəfərdən ibarət 20 ailəni əhatə edəcək. Martın 3-də də 10 ailə doğma torpaqlara yola salınacaq.

Qeyd olunub ki, köçürülənlər ağır şəraitdə yaşayan, yarımçıq tikililərin, yataqxanaların sakinləridir. Onların məşğulluq işlərini də həll edilib. Müvafiq dövlət qurumları bu prosesi həyata keçiriblər. Sakinlər dövlət orqanlarında, xidmət sahələrində, iaşə obyektlərində, kənd təsərrüfatı sahələrində, tekstil sexində işləyəcəklər. Kənddə infrastruktur obyektləri, məktəb, bağça, poçt, tibb xidmətləri və s. istifadəyə verilib.

Xatırladaq ki, 2022-ci ildə iki mərhələdə Ağalıya 66 ailə köçürülmüşdü. Hazırkı üçüncü mərhələ də hesaba alınmaqla Ağalıya köçən əhali sayı ümumilikdə 420 nəfər – 86 ailə təşkil edir.

# Müasir Azərbaycan dövlətinin qurucusu

Yerlərdə "Heydər Əliyev İli" ilə bağlı müxtəlif səpkili tədbirlər keçirilir, Ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətləri minnətdarlıqla xatırlanır.





Samux rayon Mədəniyyət Mərkəzində "Xalqını Zəfərə aparan lider" adlı tədbir təşkil olunub. Əvvəlcə Ulu öndər haqqında hazırlanmış videoçarx nümayiş etdirilib, sonra çıxışlar dinlənilib. Qeyd olunub ki, Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirib.





Mədəniyyət Mərkəzinin Sərkar kənd Folklor evində "Xalqının xilaskar oğlu" adlı dəyirmi masa keçirilib. Çıxışlardan sonra Folklor evinin bədii qiraət dərnəyinin üzvləri Ulu öndərə həsr edilmiş şeirlər söyləyiblər. Sərkar kənd kitabxanasında isə "Tarix yaradan insan" başlığı altında dəyirmi masa keçirilib. Məktəbli oxucular "Heydər babanın nəvələriyik" şeirini səsləndiriblər.

Xocalı rayon Mədəniyyət evi və Xocalı şəhər 4 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "Ulu öndər Heydər Əliyev uşaqların ən böyük himayədarı idi" adlı tədbir keçirilib. Bildirilib ki, Azərbaycanda uşaqların sağlam, firavan böyüməsi, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsası Heydər Əliyev tərəfindən qoyulub.

***

Zaqatala rayon Uşaq incəsənət məktəbində "Heydər Əliyev gənclərin gözü ilə" adlı tədbir keçirilib. Şagirdlər şeirlər söyləyib, məktəbin xor kollektivi mahnılar ifa edib.

Balakən rayon Heydər Əliyev Mərkəzində ümumtəhsil məktəblərinin XI sinif şagirdləri üçün "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda açıq dərslər davam edir. Dərslərin əsas məqsədi Ümummilli liderin dövlətçilik irsinin və azərbaycançılıq məfkurəsinin öyrənilməsi və təbliği, şagirdlərin bu sahədə biliklərinin zənginləşdirilməsindən ibarətdir. İndiyədək dərslərdə rayonun 18 ümumtəhsil məktəbinin 403 nəfər XI sinif şagirdi iştirak edib.

Oğuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları tərəfindən "Haqdan yanan çıraq sönmür" adlı layihə çərçivəsində Qax rayon Heydər Əliyev Mərkəzinə ekskursiya edilib. Muzeyin əməkdaşları mərkəzin fəaliyyəti ilə tanış olub, rəy və təkliflər kitabına öz ürək sözlərini yazıblar.

***

Ucar rayon MKS-nin Mərkəzi Kitabxanasında "Zəmanəni qabaqlayan fenomen – Heydər Əliyev dühası" başlığında tədbir təşkil olunub.

***

Masallı rayon Mərkəzi Kitabxanasında YAP rayon təşkilatı və kitabxananın birgə təşkilatçılığı ilə "Tarixi şəxsiyyət və tarix yaradan şəxsiyyət" adlı tədbir keçirilib. Tədbirdə mövzu ilə bağlı məruzələr dinlənilib.

Yardımlı Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Heydər Əliyev və mədəniyyət" mövzusunda tədbir keçirilib. Qeyd olunub ki, Ulu öndərin ölkənin bütün sahələrində, o cümlədən mədəniyyət sahəsində gördüyü işlər onun Vətəninə, dövlətinə, xalqına nə qədər bağlı olduğunu nümayiş etdirir. Tədbir iştirakçıları Heydər Əliyev haqqında nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Xalqa bağışlanan ömür" adlı tədbir keçirilib. Çıxış edənlər Ulu öndərin zəngin dövlətçilik ənənələrindən söz açıblar. Sonda mərkəzdə təşkil olunan sərgilərə, Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlara baxış olub.

***

İmişli rayon Əliqulular kənd kitabxanası tərəfindən kənd klubunda Ulu öndərin 100 illiyi ilə bağlı tədbir keçirilib. Dahi siyasətçiyə həsr edilmiş şeirlər söylənilib, "Əbədiyyət yolu" filmi nümayiş etdirilib.

***

Saatlı rayon Mərkəzi Kitabxanasında "Dünyanın ən böyük siyasətçilərindən biri" adlı tədbir təşkil edilib. Ulu öndərin həyatı və siyasi fəaliyyəti haqqında geniş məlumat verilib, məktəbli fəal oxucuların söylədiyi şeirlər maraqla qarşılanıb. Sonda tədbir iştirakçıları foto və kitab sərgisi ilə tanış olublar.

Şirvan şəhər Heydər Əliyev Mərkəzinin və Şirvan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə Şirvan Müalicə-Diaqnostika Mərkəzində "Heydər Əliyevin Azərbaycan səhiyyəsinin inkişafında rolu" adlı sərgi təşkil edilib.

***

Siyəzən rayon Mərkəzi Kitabxanasında "Heydər Əliyev – dahi şəxsiyyət" mövzusunda tədbir keçirilib. Çıxış edənlər dünya miqyaslı dövlət xadimi olan Ulu öndərin dövlətçilik ənənələrimizin dirçəldilməsi, müasir inkişafımızın təməlinin qoyulmasında misilsiz xidmətlərindən bəhs ediblər. Sonra dahi siyasətçinin həyat yolu və siyasi fəaliyyətindən bəhs edən "Heydər Əliyev – dahi şəxsiyyət" sənədli filmi nümayiş olunub.

***

Qəbələ rayon Mədəniyyət Mərkəzində "Sən elə bir zirvəsən..." adlı bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə müxtəlif yaş qrupları üzrə 23 nəfər iştirak edib. Gülnar Abdurahmanova I, Aydan Musalı II, Ayla Abdurahmanova isə III yerə layiq görülüb.

***

Ağstafa Dövlət Rəsm Qalereyası Ağstafa şəhərindəki Səməd Vurğun parkında "Heydər Əliyev – 100" başlıqlı səyyar sərgi təşkil edib. Sərgidə Ulu öndərin portretləri, dövlət rəmzlərimiz və təbii zənginliklərimizlə bağlı rəsmlər yer alıb.

**Hazırladı: N.Məmmədli**

# İşğaldan azad edilən nə qədər ərazi minalardan təmizlənib?

2020-ci ilin Vətən müharibəsindən sonra işğaldan azad edilən torpaqlarda 68300 hektar (683 kvadrat kilometr) ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

Bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib. O bildirib ki, təmizlənən ərazilərdə ümumilikdə 82 min mina və partlamamış hərbi sursat zərərsizləşdirilib.

İşğaldan azad edilmiş rayonlar üzrə ən çox iş Ağdamda görülüb. Ötən müddətdə rayon üzrə 16 min hektardan çox sahə mina və partlamamış hərbi sursatlardan təmizlənib.

ANAMA-nın rəhbəri bildirib ki, bu ilin planına uyğun olaraq, rayon ərazisində daha 10 min hektardan çox ərazi təmizlənəcək. Ağdam rayonunun işğaldan azad edilən ərazisinin təxminən 25 faizi mina və partlamamış sursatlardan təmizlənib. Ağdamda artıq bir sıra layihələr yekunlaşıb.

ANAMA-nın 2023-cü ilin ikinci ayı üzrə məlumatında isə bildirilir ki, fevralın 1-dən 28-dək Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 40, tank əleyhinə 116 mina və 1487 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Fevral ayı ərzində ümumilikdə 2470 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.



## ANAMA-dan fotomüxbirlər üçün təlim

"Gilavar Foto Klubu" İctimai Birliyinin "PeşəkarSƏN" maarifləndirmə proqramı çərçivəsində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən fotomüxbirlər üçün mina təhlükəsinə dair "addıMINA fikir ver!" adlı təlim kursu keçirilib.

Binəqədi rayonundakı Gənclər evində təşkil olunan təlimdə fotomüxbirlərə mina və partlamamış hərbi sursatlar, mina təhlükəsi, onun fəsadları və yarada biləcəyi təhlükələr, minalanmış ərazilərin necə müəyyən olunması, belə ərazilərdə təsadüfən ehtiyatsızlıqdan baş verən hadisələr zamanı hansı addımların atılması haqqında maarifləndirici məlumatlar verilib. Həmçinin təhlükəsizlik məsafələri və zolaqları, minaaxtaranların istifadə etdiyi vasitələr, minaların zərərsizləşdirilməsi zamanı fotoçəkiliş qaydaları barədə məlumatlar təqdim olunub.

Sonda iştirakçıların nəzəri bilikləri nə dərəcədə qavraması və gələcəkdə onlardan necə istifadə edə bilməsinə əmin olmaq üçün test üsulu ilə imtahan keçirilib. Təlimi uğurla başa vuranlara sertifikatlar təqdim olunub.

# Qarabağdakı erməni əhali ilə praktik təmaslar başlanır

## Xocalıda ilk görüş keçirilib



əvvəli səh. 1-də

Məlumatda bildirilir ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar davam etdiriləcək. Prosesin gedişi barədə ictimaiyyət məlumatlandırlacaq.

***

Azərbaycanda yaşayan erməni əsilli sakinlərlə millət vəkili Ramin Məmmədovun görüşü potensial vətəndaşlarımızla birbaşa təmas kimi qiymətləndirilməlidir. Bunu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Babaoğlu bildirib (APA).

Millət vəkili qeyd edib ki, bu, Azərbaycanın Vətən müharibəsindən sonra irəli sürdüyü dialoq formasıdır və uzun müddət Azərbaycan qanunlarından kənarda yaşamış sakinlərimizin cəmiyyətimizə reinteqrasiya olunmaları istiqamətində atılan ilk addımdır: "Uzun müddət bu cür birbaşa təmasların baş tutmaması üçün həm Ermənistanda, həm də icma sakinləri içərisində olan radikallar, eyni zamanda Ermənistan və Azərbaycan arasında sülhün olmasını istəməyən bəzi xarici güc mərkəzləri əllərindən gələni etdilər. Hətta Ruben Vardanyan adlı xüsusi antisülh layihəsi belə hazırladılar. Ancaq nəticədə heç nəyə nail ola bilmədilər. Azərbaycanın qətiyyətli mövqeyi və strateji diplomatiyası bu cəhdlərin hamısını boşa çıxardı".

Hikmət Babaoğlu diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev yanvar ayında Münxen Təhlükəsizlik Konfransında mümkün sülh perspektivindən danışarkən Ruben Vardanyanın Qarabağı tərk etməsindən sonra buradakı erməni əhali ilə praktik təmasların başlana biləcəyini demişdi: "Nəticədə elə də oldu. Azərbaycana ixrac edilən oliqarx-cinayətkar uzaqlaşdırıldı və ilkin nəticə əldə edildi. Ötən müddət ərzində erməni diplomatiyası, qeyri-hökumət institutları, erməni lobbisi nə qədər Azərbaycan ekofəallarının haqlı tələblərini manipulyasiya etmək istəsələr də, Laçın yolu haqqında yalançı blokada təsəvvürü formalaşdırmağa çalışsalar da, bu da baş tutmadı".

Deputat qeyd edib ki, Azərbaycan öz maraqlarını qorumağı bacardı və suveren hüquqlarının bütün ərazimizdə tətbiq edilməsi üçün irəliyə doğru daha bir addım ata bildi: "Görüş haqqında isə qısa onu demək olar ki, erməni sakinlər bəzi kommunikativ və təchizat problemlərinin həll edilməsi üçün kömək istədilər. Bu, özlüyündə Azərbaycanın yuridiksiyasının erməni icması tərəfindən qəbul edilməsi kimi də qiymətləndirilə bilər. Azərbaycan isə dağ-mədən yataqlarımızın qeyri-qanuni istismar olunması vəziyyəti ilə bağlı problemlərin həlli ilə məşğul imkanları əldə etdi. Eyni zamanda gələcəkdə Azərbaycanın digər ərazilərində də belə görüşlərin keçirilməsi planlaşdırıldı...".

# Musiqiləri ilə könüllərdə yaşayan...

## Oqtay Kazımінin yubileyinə həsr edilmiş musiqi axşamı

Fevralın 28-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında görkəmli bəstəkar, Xalq artisti Oqtay Kazıminin (1932-2010) 90 illiyinə həsr olunmuş konsert keçirildi.

Mərasimdə mədəniyyət və incəsənət xadimləri, digər qonaqlar, musiqisevərlər iştirak edirdilər.

Əvvəlcə bəstəkarın həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş etdirildi.





Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Jalə Qulamova Oqtay Kazımini musiqi mədəniyyətimizdə öz dəst-xətti ilə seçilən bəstəkar kimi xarakterizə etdi. Bildirdi ki, əsasən mahnı bəstəkarı kimi tanınsa da, O.Kazıminin yaradıcılıq diapazonu çox genişdir. Bəstəkar böyük simfonik orkestr üçün “Azərbaycan rapsodiyası”, “Qəhrəmanlıq simfoniyası”, “Bayram uvertürası”, “Sumqayıt lövhələri” simfonik süitası, eləcə də 20 Yanvar faciəsinə həsr etdiyi “Şəhidlər” simfoniyası, “Qarabağ lövhələri” simfonik süitası kimi əsərlərin müəllifidir. Həmçinin bir sıra tamaşalara (“Qılınc və qələm”, “Danabaş kəndinin əhvalatı”, “Müsyö Jordan və dərviş Məstəli şah”, “Şeyx Sənan”, “Ədirnə fəthi”, “Büllur sarayda” və s.) musiqilər yazıb.

Sonra konsert proqramı təqdim olundu. Gecədə Xalq artistləri Gülyanaq Məmmədova, Gülyaz Məmmədova, Heydər Anatollu, solistlər Fəxri Kazım-Nicat, Aynur İsgəndərli, İlhamə Qasımova, Aytən Məhərrəmova, Ayşən Mehdiyeva, Mətin Rzazadə, Rövşən Qəhrəmanov, Taleh Yəhyayev və “Qaya” ansamblı çıxış etdilər.

Bəstəkarın “Qaytar eşqimi”, “Mehriban insanlar”, “Dağlar”, “Məhəbbət”, “Əlvida”, “İnanmaram”, “Bəs nə deyim?”, “Taleyim mənim”, “Ey həyat, sən nə qəribəsən?”, “Bulaq suyu, dağ havası”, “Bir yerdə olaq”, “Ayrılıq olmayaydı”, “Cavanlığım”, “Hər Vətən deyəndə...”, “Tələsin, insanlar” və s. könül oxşayan mahnıları səsləndi.

İfaçıları Dövlət Mahnı Teatrının estrada-simfonik orkestri (bədii rəhbər Xalq artisti Salman Qəmbərov) və instrumental ansamblı (bədii rəhbər Mirxalid Salayev) müşayiət edirdi. Bəstəkarın unudulmaz nəğmələri tamaşaçıları nostalji hisslərə qərq etdi. Bütün ifalar alqışlarla qarşılandı.

***

Xatırladaq ki, Oqtay Məmməd oğlu Kazımi 1932-ci il dekabrın 27-də Astara şəhərində anadan olub. Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində xor dirijoru ixtisası (Hacı Xanməmmədovun sinfi) üzrə və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) Bəstəkarlıq fakültəsində (Cövdət Hacıyevin sinfi) təhsil alıb. Sumqayıt Musiqi Texnikumunda müəllim və direktor müavini işləyib. Azərbaycan Dövlət Filarmoniyasında musiqi redaktoru vəzifəsində çalışıb, A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində dərs deyib.

O.Kazıminin mahnıları uzun illər “Dan ulduzu” ansamblının repertuarında xüsusi yer alıb. Onun nəğmələrini Rəşid Behbudov, Zeynəb Xanlarova, Şövkət Ələkbərova, Flora Kərimova, Eldar Axundov, Yalçın Rzazadə, İlhamə Quliyeva, Oqtay Ağayev, Məmmədbağır Bağırzadə, Zaur Rzayev və digər tanınmış müğənnilər ifa ediblər.

Bəstəkar 1992-ci ildə “Əməkdar incəsənət xadimi”, 2006-cı ildə “Xalq artisti” fəxri adlarına, Prezident təqaüdünə layiq görülüb. 2010-cu il avqustun 9-da vəfat edib. 2020-ci ildə Astara şəhər Uşaq musiqi məktəbinə Oqtay Kazıminin adı verilib.

**Nurəddin Məmmədli**

## “İrs: mənəvi dəyərlərimizin təbliği” layihəsi ilə bağlı təqdimat

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Mədəniyyət Nazirliyinin əməkdaşları tərəfindən “İrs: mədəni dəyərlərimizin təbliği” layihəsi ilə bağlı tədbir keçirilib.

BXA-nın rəhbərliyi, müəllim və tələbə heyətinin iştirak etdiyi tədbirdə layihənin hədəf sahəsi, qarşıya qoyulan vəzifələr, icra mərhələləri və gözlənilən nəticələrdən bəhs edilib.

Qeyd olunub ki, layihə cəmiyyət üçün çox ciddi problemlərdən olan narkomaniya, erkən nikah, bullinq (məktəbdə aqressiv davranış), məişət zorakılığına qarşı mübarizə, eləcə də vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması kimi məsələləri əhatə edir.

Layihə çərçivəsində BXA-dan 30-dək könüllü tələbə seçiləcək. Qeyd edilən mövzular əsasında tələbələrin iştirakı ilə hazırlanan rəqs kompozisiyaları insanların kütləvi olduqları məkanlarda nümayiş olunacaq.

Tədbirdə layihənin mahiyyəti haqqında fotoslayd nümayiş etdirilib.

# Sevgi cəzaya dönəndə...

## “Aida” operasının Əli Əsgərovsuz nümayişindən notlar

Xəbər verdiyimiz kimi, ötən həftə mədəniyyətimiz nadir səsə malik opera sənətçilərimizdən birini itirdi. Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti (bas) Əli Əsgərov 62 yaşında dünyasını dəyişdi.

Onun əsas partiyalardan birini (Misir çarı, firon) ifa etdiyi “Aida” operasının növbəti tamaşasını çoxları kimi, mən də maraqla gözləyirdim. Əli Əsgərov tamaşaya iki gün qalmış dünyasını dəyişdi...

Budur, fevralın 25-dir. Opera və Balet Teatrının zalı doludur. Səhnə adamları həmkarlarının itkisindən doğan göz yaşlarını kulisdə qoyub tamaşaçı önünə çıxırlar. Sirli Misir və heç vaxt öz təsir gücünü itirməyən nakam məhəbbət haqqında möhtəşəm operanın ilk taktları səslənir, dopdolu zala sükut hakim olur. Böyük italyan bəstəkarı Cüzeppe Verdinin zərif və bənzərsiz hisslərlə qol-qanad verdiyi bu əsrarəngiz musiqi əsəri salonu ehramlar ölkəsinə, qum və günəşin harmonik səhrasına “aparır”.

Xatırladım ki, librettosu Antonion Qislansoniyə aid dördpərdəli opera ilk dəfə 1871-ci ildə Qahirədə səhnəyə qoyulub və o vaxtdan dünyanın, əksər opera teatrlarının əsas repertuarında öz yerini möhkəmləndirib.



Azərbaycan operasevərlərinə də yaxşı bəlli olan musiqi əsərinin budəfəki müşayiət və ifaçı heyəti də zəngin idi. Tamaşanın dirijoru Əməkdar artist, dirijorların beynəlxalq müsabiqələrinin laureatı Əyyub Quliyev, quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əli Usubov, quruluşçu rəssamı Əməkdar incəsənət xadimi Eyyub Fətəliyevdir.

Uzun illərdir bu teatrın repertuarında qalan “Aida”nın rəqslərinin quruluşçusu SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Qəmər Almaszadə, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır.

Budəfəki nümayişdə əsas partiyaları Əməkdar artistlər Afaq Abbasova (Aida) və Səbinə Vahabzadə (Amneris – fironun qızı) ifa edirdilər. Tamaşada Ramfis – baş kahin isə Xalq artisti Əkrəm Poladov idi.

Mütəmadi qastrolçular ilə əməkdaşlıq edib, operasevərləri fərqli ifalarla tanış edən teatr rəhbərliyi bu dəfə Radames (saray mühafizəsinin rəisi) partiyasını Manheym Milli Operasının (Almaniya) solisti İrakli Kaxidzeyə, Amonasro (Efiopiya şahı – Aidanın atası) partiyasını isə hazırda Almaniyada (Manheym Milli Operası) çalışan sənətçimiz, Xalq artisti Əvəz Abdullayevə həvalə etmişdi. Əli Əsgərovun öz səsi ilə möhür vurduğu rolda isə Samsun Dövlət Opera və Balet Teatrının (Türkiyə) solisti Tuncay Kurtoğlu səhnəyə çıxmışdı.

***

Memfisdə fironun sarayıdır və baş kahin Ramfis baş keşikçi Radamesla rastlaşıb ona həyəcanlı bir xəbər verir. Artıq Efiopiya şahı öz qoşunları ilə yenidən Misirin sərhədlərini keçib və tezliklə onun qarşısına qoşun yeritmək lazımdır. Əks halda o, paytaxtı mühasirəyə ala bilər.

Ramfis misirlilərin yürüşünə başçılıq etmək şərəfinə kimin nail olacağını allahlardan soruşmaq məqsədilə İzida məbədinə gəlir. Şöhrət arzusu ilə yaşayan Radames fikirləşir ki, əgər bu şərəf ona nəsib olarsa, doğma şəhərinin düşmənə təslim olmasına imkan verməz. Və firon allahların istəyini təntənəli şəkildə xəbər verir: Misir qoşunlarına Radames başçılıq edəcək! Mükafat olaraq da o, fironun qızı Amnerisdən onun köləsi – sevgilisi Aidanı azad etməyini istəyəcək.

Amnerisin də öz xəyalları var. O, Efiopiya üzərində qələbə qazanan Radamesin gəlişini gözləyir. Düşmənin darmadağın edilməsi, gözlədiyi şəxsin qələbəsi, tezliklə baş tutacaq görüş – bütün bunlar onu sevindirir.

Lakin Aidanı görərkən qəlbində tərəddüd və qısqanclıq hissi baş qaldırır. Aidanın sirrini öyrənmək məqsədilə fironun qızı Radamesin öldüyünü ona xəbər verir. Aida öz kədərini gizlədə bilmir və sevgisinin sirri açılır. Qəzəblənmiş Amneris öz köləsini amansız intiqam alacağı ilə hədələyir. Meydandan qələbə marşının sədaları eşidilir və xalq qalibi salamlayır. Aida allahdan ölüm diləyir. Axı, məhəbbətindən imtina etmək iqtidarında deyil...



İkinci pərdədə biz daha təntənə və dəbdəbə ilə tərtib olunmuş səhnə görürük: meydanda Misir qoşunları coşqu ilə qarşılanır. Fironun qarşısından əsir efiopiyalılar keçir. Aman diləyən əsirlərə xalq da qoşulur. Məhz bu səhnədə xorun əzəməti və zərb alətlərinin orkestr səslənməsində emosional vəziyyətin möhtəşəm təsviri alqışlarla qarşılanır...

Nəhayət, ali kahinin məsləhəti ilə firon Aidanı və atasını əsir kimi saxlamağa razılıq verir. Qızını isə Radamesə ərə verir. Amneris qalibdir və o, Aidanın kədərinə sevinir. Nilin sahilində, İzida məbədində Amneris Radamesla nikah bağlamağa hazırlaşır.

Bədbəxt Aida sevgilisi ilə əbədi vidalaşmaq üçün onu gözləyir. Narahatdır, həm də qərarlı: ayrılığa dözmədiyindən özünü Nilə atacaq. O həm də daha görə bilməyəcəyi vətənini xatırlayır. Qəfildən atası gəlir. O, artıq qızının məhəbbətindən və Amnerislə rəqabətindən xəbərdardır. Qızından sarayla bağlı sirri öyrənməsini tələb edir. Sözsüz ki, Aida razılaşmır. Küskün ata qızını lənətləyir. Bezgin Aida məhəbbətini vətəninə qurban verməyə razı olur.

Bir tərəfdən Radames də qələbəsinə əmindir. Amma Aida onunla razılaşmır: fironun qızı onları məhv edəcək və yeganə xilas yolu Efiopiyaya qaçmaqdır. Radames isə qərar verə bilmir və sevgisinə görə vətəndən imtina ona ağır gəlir. Ancaq Aida onu məcbur edir və heç nədən şübhələnməyən Radames sirri açaraq Misir qoşunlarının gedəcəyi yolu ona deyir. Amonasro çox məmnundur. Artıq efiopiyalıların qələbəsi mütləqdir. Radames dəhşət içindədir. İstəmədən vətən satqını olub. Amonasro və Aida onu sakitləşdirərək birlikdə qaçmağı təklif edirlər. Aldanmış aşiq razılaşmır və özünü kahinə təslim edir. Aida və atası qaçırlar. Məbədin altında Radamesin məhkəməsi qurulur. Amneris Aidadan əl çəkməsi üçün ona yalvarır, Misir tacını ona təklif edir. Amma cəsur döyüşçü öz sözünün üstündə durur. Aidaya görə o, vətəninə xəyanət edib. Fironun qızı gah Radamesdən dəhşətli qisas alacağını deyir, gah da tanrıdan onun xilasını arzulayır. Ali kahin hökm verir: xain diri-diri məbədin altında basdırılmalıdır!

...Aida sevdiyinin taleyinə şərik çıxmaq üçün onunla birlikdə ölmək istəyir. İndi heç kəs onları ayıra bilməz. Məbəddən kahinlərin səsi gəlir və biz kədərli məhəbbətin son taktı kimi vicdanının rahatlaşması üçün allahlara yalvaran şah qızını görürük...

Bitkin musiqi, zəngin tərtibat və mükəmməl böyük heyətin əməyi öz halal mükafatını – fasiləsiz alqışını alır.

**Həmidə Nizamiqızı**

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (17)

### 1978-ci il 30 avqust

Azərbaycandan Sovet İttifaqının ali təhsil ocaqlarında oxumağa gedən tələbələrlə görüşdə nitq söyləyən Heydər Əliyev onlara tövsiyələrini verib, uğurlar arzulayıb.

### 1978-ci il 20-22 sentyabr

Sovet dövlətinin rəhbəri, Sov. İKP MK-nın Baş katibi Leonid Brejnev Azərbaycanın paytaxtına “Lenin” ordeninin təqdim edilməsi münasibətilə Bakıya səfər edib. Bakı şəhəri SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə “inqilabi hərəkatda, Azərbaycanda sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsində xidmətlərinə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşist işğalçıları üzərində qələbəyə böyük töhfəsinə və şəhər zəhmətkeşlərinin təsərrüfat və mədəni quruculuqda əldə etdikləri nailiyyətlərə görə” SSRİ-nin ali ordeni ilə təltif edilmişdi. Aprelin 22-də ordenin təqdim edilməsi mərasimində nitq söyləyən Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev respublikada mədəniyyət sahəsinin inkişafından da söz açıb.

### 1978-ci il 3 noyabr

Heydər Əliyev bir qrup şəxsə Azərbaycan SSR Dövlət mükafatlarını təqdim edib. Respublikanın Dövlət mükafatları iki ildən bir verilirdi. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 1978-ci ildə ədəbiyyat, incəsənət və arxitektura sahələri üzrə ümumilikdə altı mükafat verilmişdi.

Bəstəkar Aqşin Əlizadə – “26-lar” kantatası üçün.

SSRİ Xalq artisti Rəşid Behbudov – son illərin konsert proqramları üçün.

Şair Hüseyn Arif – 1976-1977-ci illərdə dərc edilmiş şeirlər və poemalar üçün.

Heykəltəraşlar Telman Zeynalov, Eldar Zeynalov, arxitektor Əlibəy Novruzi – Lənkəran şəhərində həlak olmuş döyüşçülər şərəfinə memorial üçün.

Əməkdar incəsənət xadimi, ssenari müəllifi və quruluşçu rejissor Eldar Quliyev, Əməkdar incəsənət xadimi, quruluşçu operator Rasim İsmayılov, quruluşçu rəssam Rafis İsmayılov, aktyor Əliabbas Qədirov – “Azərbaycanfilm” kinostudiyasında istehsal olunmuş ikiseriyalı “Sevinc buxtası” bədii filmi üçün.

Ədəbiyyatşünas Bəkir Nəbiyev – “Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı” kitabı üçün.

### 1979-cu il 23 fevral

Heydər Əliyev Böyük Vətən müharibəsi illərində həlak olmuş Xəzər dənizçilərinin şərəfinə ucaldılmış memorialın açılışında iştirak edib.

***

Mədəniyyət, incəsənət, ədəbiyyat sahələrində qabaqcıl fəaliyyət dövlət təltifləri ilə təşviq edilirdi.

### 1978-ci il 3 noyabr

Sov. İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin qərarı ilə ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1978-ci il üzrə SSRİ Dövlət mükafatlarının laureatları elan edilib. SSRİ Dövlət mükafatı 1967-ci ildən etibarən hər il, Böyük Oktyabr Sosialist inqilabının (7 noyabr) ildönümündə verilirdi. 1978-ci ildə ədəbiyyat, incəsənət və arxitektura üzrə ümumilikdə 22 mükafat verilmişdi. Laureatlardan biri Azərbaycan SSR Xalq rəssamı, heykəltəraş Tokay Məmmədov (Bakı şəhərində Məşədi Əzizbəyovun abidəsi üçün) idi.

### 1978-ci il 24 noyabr

C.Cabbarlı adına Yerevan (İrəvan) Dövlət Azərbaycan Dram Teatrının Bakı şəhərinə qastrol səfərində müvəffəqiyyətli çıxışlarına görə teatrın direktoru Hidayət Orucov, aktrisalar Raya Qafarova və Elmira İsmayılova Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif ediliblər.

### 1978-ci il 1 dekabr

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə, səmərəli ictimai fəaliyyətinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq yazıçı İmran Haşım oğlu Qasımov Lenin ordeni ilə təltif edilib.

### 1979-cu il 4 yanvar

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə sovet teatr sənətinin inkişafındakı xidmətlərinə görə M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı “Şərəf Nişanı” ordeni ilə təltif edilib.

### 1979-cu il 23 yanvar

Musiqi ifaçılıq sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq respublikanın Xalq artisti Əşrəf Həsənov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1979-cu il 6 fevral

Sovet kino sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq kinorejissor, respublikanın Xalq artisti Tofiq Tağızadə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1979-cu il 23 fevral

Sovet ədəbiyyatı və incəsənətinə xidmətlərinə görə bir qrup yaradıcı şəxsə respublikanın fəxri adları verilib:

“Xalq şairi” – Mirvarid Dilbazi;

“Xalq artisti” – Mürsəl Bədirov (M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti);

“Xalq rəssamı” – Yusif Hüseynov (Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri);

“Əməkdar incəsənət xadimi” – Mürsəl Nəcəfov (sənətşünas, Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin katibi);

“Əməkdar artist” – Konstantin Aleksandrov, İsaak Levtin, Saleh Sultanov (Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin solistləri); Vaqif Mustafazadə (“Muğam” caz ansamblının rəhbəri).

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№17 (1986)
3 mart 2023
www.medeniyyet.az

# “Ciddi ədəbiyyat təbliğ edilməlidir”

## Xalq yazıçısı Anar: “Virtual dünyada söz sənətinə maraq da, hörmət də, diqqət də azalıb...”

Martın 14-də Xalq yazıçısı, publisist, ssenarist, kinorejissor, ictimai xadim, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın 85 yaşı tamam olur.

Anar baharda dünyaya gəlib. Bəlkə həm də bu səbəbdən yaradıcılığı da həmişə yeni təravətdə olub, sevilib, oxunub. İnsanlar bahara ehtiyac duyduqları kimi Anarın da əsərləri hər zaman ehtiyac duyulan, axtarılan əsərlərdir. Xalq yazıçısı ilə ömrünün 85-ci baharında görüşdük.

*– 15 il əvvəl, 70 illik yubileyinizlə bağlı müsahibəmizdə demişdiniz ki, mən yaşa o qədər də əhəmiyyət vermirəm. Əsas da məni yaşadan, həvəsləndirən budur ki, planlarım çoxdur, elə işlər var ki, onları görmək istəyirəm. Elə isə o gündən bu günə hansı əsas planlarınızı reallaşdıra bildiniz?*

– Xeyli iş görə bildim. Üç cilddə rus dilində “Azərbaycan ədəbiyyatı və incəsənəti” nəşr edilib. Hərəsi 1000 səhifəlik kitabdır. Azərbaycan dilində “Azərbaycan söz dünyası” 5 cilddə çap olunub. “Yaşamaq haqqı” kitabım nəşr olunub. Bu da təxminən 1000 səhifədir. Nazim Hikmətin həyat və yaradıcılığı haqqında düşüncələrimdən ibarət “Kərəm kimi” romanım da nəşr olunub, haradasa, 1000 səhifədir. Bundan əlavə, “Sübhün səfiri” filminin ssenarisi və Gənc Tamaşaçılar Teatrında səhnələşdirilən “Şəhərin qış gecələri” pyesi, eləcə də çoxlu məqalə, hekayə və yazılar. Demək, xeyli iş görülüb.

*– Yaşın bu çağında həyat və ədəbiyyatla bağlı düşüncələrinizi də bilmək maraqla olardı...*

– Düzü, əvvəl necə görünürdüsə, bu gün də elə. Elə bir fərq yoxdur. Yeganə fərq odur ki, bu gün ədəbiyyatı daha az oxuyurlar. Bura, Yazıçılar Birliyinə bir müddət əvvəl gənclər gəlmişdilər. Divardakı yazıçıların şəkillərini göstərib kim olduqlarını soruşuram. Heç birini tanımırlar. Bu böyük təəssüf doğuran haldır. Ona görə də nə qədər ədəbiyyatı təbliğ etsək, o cümlədən sizin qəzetiniz, televiziya kanalları, digər media vasitələri ilə klassiklərimizi tanıtsaq, o qədər də yaxşı olar.

*– Gənclərimizin klassiklərimizi tanımamağının səbəbini nədə görürsünüz? Bəlkə həm də Yazıçılar Birliyində təşkil olunan çoxsaylı tədbirlərdə, xatirə və yubiley gecələrində gənclərin iştirakı diqqətdə saxlanılmır.*

– Məncə, əsas səbəb virtual dünyanın yaranmasıdır. Gənclər sosial şəbəkələrə qapanıblar. Kitab oxumurlar. Yalnız adını eşidirlər. Bu virtual dünyada söz sənətinə maraq da, hörmət də, diqqət də azalıb.

*– Sizcə, bu problemlə necə mübarizə apara bilərik?*



– Müəllimlərdən, pedaqoqlardan daha çox asılıdır. Məktəblilərin teatrlarda tamaşa izləməsinə şərait yaratmaq, gənclərin yazıçıların ev-muzeylərinə ziyarətini təşkil etmək, bir sözlə, genişmiqyaslı iş aparmaq lazımdır. Təhsil sistemindən də asılı səbəblər çoxdur. Maarifləndirici, ciddi ədəbiyyat təbliğ olunmalıdır. Bu işi birlikdə görsək, daha məqsədəuyğun olar.

*– Hamımız birlikdə demişkən, Ulu öndər Heydər Əliyev Azərbaycan yazıçılarının 1976-cı ildə keçirilən qurultayındakı çıxışında yaradıcılıq ittifaqlarının sıx əlaqəsinin, qarşılıqlı mübadilənin mədəniyyətimizin inkişafı üçün önəmini vurğulamışdı. Bu məsələ indi də aktualdır. Anar müəllim, Rəssamlar İttifaqı, Bəstəkarlar İttifaqı və başqa yaradıcılıq təşkilatları ilə birgə layihəniz olubmu?*

– Yaradıcı təşkilatların hər birinin rəhbəri mənim dostlarımdır. Rəssamlar İttifaqı, Bəstəkarlar İttifaqı, Azərbaycan Kinematoqrafçılar İttifaqı da eləcə. Bir-birimizin tədbirlərinə qatılır, çıxışlar edirik. Özüm Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvüyəm. Vaxtilə Rüstəm İbrahimbəyov sədr idi, hazırda Rasim Balayevdir. Tədbirlərində mütəmadi iştirak edirik. Fərhad Xəlilov sərgilərə dəvət edir. Əlbəttə ki, Ulu öndərin vaxtilə etdiyi bu çağırış çox doğrudur. Bizim yaradıcı təşkilatlar arasında tək şəxsi deyil, yaradıcı əlaqələr də qurulmalıdır. Bu sahəyə də xüsusi diqqət ayırmaq lazımdır.

*– Bu il ölkəmizdə “Heydər Əliyev İli”dir. Yazıçılar Birliyinin əlamətdar ilə nə kimi töhfəsi olacaq?*

– Yazıçılar Birliyi kitab hazırlayır. Bu kitabda Heydər Əliyevi şəxsən tanıyan yazıçıların xatirələri toplanıb. Kitabda mənim də xatirələrim yer alır. Tanımayan, şəxsən ünsiyyətdə olmayan yazıçıların da Heydər Əliyevə həsr etdikləri yazılar bu nəşrdə olacaq. 100 illik yubileyə belə bir sanballı nəşrlə töhfəmizi verəcəyik.

*– 2008-ci ildə Yazıçılar Birliyi və Mədəniyyət Nazirliyinin birgə layihəsi olan “Gənc ədiblər məktəbi” yaradılmışdı, xeyli müddət də fəaliyyət göstərdi, bu layihənin iştirakçısı olan neçə-neçə gənc ədəbi mühitdə tanındı...*

– Biz bu layihəni bərpa etməyi, əlbəttə ki, düşünürük. Ümumiyyətlə, Mədəniyyət Nazirliyi ilə birgə müzakirə etmək istədiyimiz məsələlər, layihələr var. İndi o sistemdə dəyişikliklər gedir. Düşünürəm ki, birgə planları, işləri gələcəkdə həyata keçirə bilərik.

*– Bu gün Türk dünyasının ölkələr və xalqlar olaraq bir araya gəlməsi hamımızı sevindirir. Sizcə, ədəbiyyat və sənət bu yaxınlaşmaya, birliyə öz töhfəsini necə verə bilər?*

– Mən Türkiyəyə ilk dəfə haradasa 40 il əvvəl getmişdim. Həmin dövrdə çox üzüldüm ki, orada, bir nəfər də olsun, Azərbaycan yazıçısını tanımır. Bir nəfər də olsun yazıçımızın əsərlərinə rast gəlmədim. İndi çox şey dəyişib. Bu gün bizim onlarla yazıçının nəinki Türkiyədə, bütün Türk dünyasında əsərləri, kitabları nəşr olunur. Yazıçılarımızın əsərləri tamaşaya qoyulur. Eləcə də bizim türkdilli dövlətlərlə əlaqələrimiz genişlənir. Könül istər ki, daha da çox olsun. Bir-birimizi daha da yaxından tanıyaq...

### “Mətbuatda, ədəbiyyatda dilimizin vəziyyəti bizi narahat edir”

*– Siz həmişə ana dilimizə həssas yanaşmısınız. Müasir ədəbi nümunələrimizin dili sizi qane edirmi?*

– Biz bir neçə gün əvvəl Yazıçılar Birliyində müşavirə keçirdik. Seyran Səxavət dilimizin vəziyyəti haqqında məruzə etdi. Akademiklər, professorlar, Xalq yazıçıları, digər müəlliflər də çıxış etdilər. Bu gün mətbuatda, ədəbiyyatda dilimizin vəziyyəti bizi çox narahat edir. Qeyri-dəqiq ifadələr, dil pozuntuları və s. var. Bunlarla mübarizə bizim borcumuzdur. Bizim müşavirənin mətni “Ədəbiyyat qəzeti”ndə çap olunub. Bütün dil qayğılarımız bu mətndə ifadə olunub. Bundan sonra da məsələni diqqətdə saxlayacağıq.

*– Yaradıcılığınızda ədəbi-mədəni və tarixi yaddaşa müraciət önəmli yer tutur. Bəs bu gün tariximizin hansı dövrünə, hadisəsinə işıq salınmasına ehtiyac var?*

– Bu gün tariximizə aid daha çox kitablar yazılır. Qarabağ xanlığının tarixinə dair daha çox kitablar nəşr olunur. Bu mövzu aktualdır. Çünki Qarabağ hər zaman Azərbaycan torpağı olub. Ermənilərin yaratdığı saxta tarixi ifşa etmək üçün həqiqi tarixi yazmaq lazımdır. Bundan əlavə, dövlətçilik tariximizin əsas səhifələrindən olan Səfəvilər dövrü ilə bağlı da əsərlərin yazılması, məncə, gündəmə gəlməlidir.

*– Bəzi ziyalılar, hətta hansısa tənqidçi Mirzə Cəlilin, Sabirin timsalında tənqidi realistlərin guya xalqımızı təhqir etdiyi barədə fikirlər səsləndirirlər. Bu qənaətdə olanlara nə deyərdiniz?*

– Bu qənaətdə olanlara mənim sözüm budur ki, bu heç də düzgün ifadələr deyil. Ümumiyyətlə, bəzən şairlərimiz, yazıçılarımız barədə yazılanlar, danışılanlar heç də həqiqəti əks etdirmir. Məsələn, 37-ci illə bağlı müəyyən fikirlərə rast gəlirik. Bilirsinizmi, dövrün, zamanın da öz tələbləri, öz qanunları olub. Bu binada Yazıçılar İttifaqının fəaliyyəti 1939-cu ildən sonraya təsadüf edir. Bu illər ərzində yazıçılarımız arasında yaşananlar da, yaranan ədəbiyyatımız da tarixdir.

### “Tarixi şəxsiyyətlərimiz haqqında yeni filmlər çəkilsə, yaxşı olar”

*– Mirzə Cəlil, Üzeyir bəy, Hüseyn Cavid, Mirzə Fətəli haqqında filmləriniz var. Bu silsilədən daha kimlər haqqında film çəkmək istərdiniz?*

– Bu mövzuda demək istədiyim odur ki, görkəmli ədəbiyyat və mədəniyyət xadimlərimiz haqqında nə qədər çox filmlər çəkilsə, təbliğ olunsa, bir o qədər yaxşı olar. Söhbət mənim ssenarilərimdən gedirsə, uzun müddətdir mənim ssenarilərimə film çəkilmir. Klassiklərə aid beşinci filmin ssenarisini yazmışam. Cəfər Cabbarlı haqqında “Azad bir quşdum” adlı ssenarini üç il əvvəl nazirlik qəbul etdi, ancaq hələ də film barədə bir xəbər yoxdur. Teatrımızın 150 “Azərbaycanfilm”in 100, kinomuzun 125 illik yubileyində belə bir filmin ərsəyə gəlməsi həm də Cabbarlı ruhuna bir ehtiram olardı. Düzdür, yenə də onu qeyd etmək istərdim ki, burada problem maliyyə vəsaiti ilə də bağlı ola bilər. Mən demirəm, bunların hamısını dövlət etməlidir. Amma bizim varlı, imkanlı adamlarımız var. Onlar bu ssenarilərə pul ayırsalar, kinomuza dəstək olsalar, heç də pis olmaz.

*– Qeyd etdiyiniz kimi, bu il peşəkar milli teatrımızın 150 illiyidir. Teatr tariximizdə xüsusi yeri olan tamaşalar sırasında sizin də imzanız var. Ulu öndər yaradıcı heyətlə hal-əhval tutmaq üçün səhnəyə ilk dəfə sizin “Şəhərin yay günləri” pyesinizin tamaşasından sonra çıxıb...*

– Bəli, o vaxt Heydər Əliyev ali məktəblərə qəbulda rüşvət problemindən bəhs edən pyesimi “vaxtında yazılan əsər” adlandırdı. Bu mövzuda film çəkilməsini tövsiyə etdi. Bu əsərə görə 1980-ci ildə pyesin müəllifi kimi mənə Dövlət mükafatı da verildi. Amma son illər əsərlərim teatrlarda, demək olar ki, səhnəyə qoyulmur. Mən çox arzulayardım ki, “Şəhərin yay günləri”ndən sonra yazdığım “Şəhərin qış günləri” əsəri də məhz Akademik Milli Dram Teatrında səhnəyə qoyulsun. Təəssüf ki, bu əsərə teatr laqeyd yanaşdı. 20 Yanvar faciəsinin 30 illiyinə həsr olunmuş əsəri uğurla Əməkdar incəsənət xadimi, rejissor Bəhram Osmanov Gənc Tamaşaçılar Teatrında səhnələşdirdi. Bu gün mənim hər hansı bir teatra müraciət etmək fikrim yoxdur. Teatrlarda əsərlərim əsasında hazırlanan tamaşalara görə minnətdaram.

*– Anar müəllim, “Dədə Qorqud” filmində Emin Sabitoğlunun sizin sözlərinizə bəstələdiyi məşhur “İncəbellim” mahnısı Vətən müharibəsindən sonra başqa mətnlə ifa edilir. Bunu necə qarşıladınız?*

– Mən, düzü, bu dəyişikliyi müsbət qarşılamadım. İllərdir tanınan bir mahnıya müdaxilə etməyi müəllif hüququna da hörmətsizlik kimi qəbul edirəm. Yaxşı olardı ki, bu musiqi üzərində oxunan sözlərə ayrı mahnı bəstələnsin.

*– Bu gün sizi sevənlər və sevməyənlər, AYB-ni tənqid edənlər və işini təqdir edənlər var...*

– Məni sevənlər 99 faizdirsə, sevməyənlər 1 faiz təşkil edir. Yazıçılar Birliyindən narazı qalanlarla razı qalanların sayı da mütənasibdir. Bir tərəfdən Yazıçılar Birliyini tənqid edən yazıçılar o biri tərəfdən gəlib birliyə üzvlük üçün müraciət edirlər. Belə məqamlar var. Əgər Yazıçılar Birliyi heç bir işə yaramırsa, onda niyə siz bura üzv olmaq üçün növbəyə dayanırsınız. Bu gün Yazıçılar Birliyi bacardığı qədər həm gənc, həm də yaşlı nəsil yazıçılarımıza dəstək olmağa çalışır. Fəaliyyətimizdən söz açarkən onu deyim ki, biz burada çox cüzi məvaciblə çalışırıq. Bəzən hesablayanda görürük ki, bizim sədr və müavinlərin maaşını bir yerdə toplayanda hansısa idarə rəisinin maaşına bərabərdir. Maaş artımı ilə bağlı müraciət edəndə həmişə bizə deyilir ki, ixtisarlar edin və bunun nəticəsində də maaşları yüksəldin. Amma burada rəhbər olduğum illər ərzində heç vaxt heç kimi ixtisara salmadım. Çünki düşündüm ki, cüzi də olsa, adamın ümidi, uşaqlarına çörəkpulu aparmaq qapısı bu birlikdir. İşimizə gəlincə isə, biz qurultaydan sonra bir neçə dəfə iclaslar keçirmişik. Bölmələrimizin, seksiyaların işinin dirçəldilməsi, bu günün tələblərinə cavab verən qaydada tənzimlənməsi ilə bağlı tövsiyələrimi də vermişəm.

*– Sizə elə gəlmirmi ki, şanlı Zəfərimizin bədii ədəbiyyatda inikası ilə bağlı cəmiyyətdə sanki bir qədər səbirsizlik hiss olunur.*

– Bu gün cəmiyyətdə Zəfərə, Vətən müharibəsinə həsr olunan ədəbiyyat yazılmır deyənlər, əslində, ədəbiyyatı oxumayanlar, ədəbi gündəmdən xəbərsiz olanlardır. Biz Vətən müharibəsinin ildönümünə həsr olunmuş AYB-nin təşəbbüsü ilə hazırlanan “Qarabağ dastanı, otuz ilin həsrəti – 44 günün Zəfəri” kitabını çap etdik. Bu kitabdakı əsərlərin çoxu Vətən müharibəsində Zəfərimizdən sonra qələmə alınıb. Ramiz Qusarçaylının bu kitabda yer alan “Vətən” poemasına mükafat da verdik. Həmçinin kitabda Sabir Rüstəmxanlının yaxşı bir poeması var. Ümumilikdə, kitabdakı bütün yazılar Zəfər mövzusunu özündə əks etdirir.

*– Bu il Şuşa “Türk dünyasının mədəniyyət paytaxtı” kimi çoxsaylı tədbirlərə ev sahibliyi edəcək. AYB olaraq bununla bağlı planlarınız varmı?*

– Şuşada keçiriləcək mötəbər tədbirlərə biz də özümüzə aid olan bölmələr üzrə hazırlaşırıq. İnanırıq ki, bu tədbirlər də çox böyük uğurla yekunlaşacaq.

*– Müsahibəyə görə təşəkkür edirik. Qəzetimizin kollektivi adından yubileyinizi təbrik edir, cansağlığı, yaradıcılıqla bol olan fərəhli illər arzulayırıq.*

– Mən də sizin kollektivə uğurlar arzulayıram.

**Lalə Azəri**

## Türkiyə ədəbi mühiti və Anar yaradıcılığı

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyeva tərəfindən “Türkiyə ədəbi mühiti və Anar yaradıcılığı” adlı e-kitab hazırlanıb.

İnstitutun Elmi şurasının qərarı ilə ərsəyə gətirilən kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Akif Hüseynov, rəyçisi və ön söz müəllifi filologiya elmləri doktoru Elnarə Akimovadır.

Kitabda Xalq yazıçısı Anarın Türkiyə ədəbi-mədəni mühitindəki yeri, görüşləri, əsərlərinin nəşri, haqqında aparılmış tədqiqat işləri və s. barədə materiallar əhatə olunub.

**Rəşid bəy Əfəndiyev – 160**

# Maarif fədaisi

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və ədəbi fikrin inkişafında böyük xidmətləri olan ziyalılarımızdan biri də pedaqoq, dramaturq, tərcüməçi və etnoqraf Rəşid bəy Əfəndiyevdir. O, ömrünün 60 ilini xalq maarifi işinə həsr edib. Bu il görkəmli ziyalı-ədibin anadan olmasının 160 illiyidir.

Rəşid bəy İsmayıl oğlu Əfəndizadə (Əfəndiyev) 1863-cü ildə Nuxa (indiki Şəki) şəhərində ruhani ailəsində anadan olub. İbtidai təhsilini mollaxanada alır. Sonra Nuxa qəza məktəbində təhsilini rus dilində davam etdirir. 1878-ci ildə Qori Müəllimlər Seminariyasının Müsəlman şöbəsinə qəbul olunur. İlk günlərdən müəllimlərinin diqqətini çəkir. Çalışqanlığı, elmi biliklərə coşqun marağı ilə tələbə yoldaşlarından fərqlənir. Seminariyanın üçüncü kursunda ikən tədris proqramlarının tərtibində və ana dili dərsliklərinin hazırlanmasında yaxından iştirak edir. Eyni zamanda ictimai işlərdə fəallıq göstərir. Dram dərnəyinə yazılır. Klassik Azərbaycan və rus ədəbiyyatını mütaliə edir. Bütün bunlar onda bədii yaradıcılığa da güclü maraq oyadır.

Araşdırmalarda qeyd edilir ki, gənc Rəşid bəy ilk olaraq Qəbələ ibtidai xalq məktəbində pedaqoji fəaliyyətə başlayır, sonra bu təhsil ocağının müdiri olur. O, burada işlədiyi müddətdə sakinlərin yaşayış tərzi, adət-ənənəsi, folkloru, mədəni irsi ilə yaxından tanış olur. Eyni zamanda şagirdlərdə vətən-xalq sevgisi, milli təəssübkeşlik hissi, elmi biliklərə dərin maraq yaratmağa çalışır. Məktəbdə tədrisin dövrün tələblərinə uyğun qurulmasına çalışır. Yeni dövrün çağırışları qarşısında köhnə təhsil üsullarının artıq gərəkli olmadığı qənaətinə gələn, ana dilində dərsliklərin zərurətə çevrildiyini görən maarif xadimi yazırdı: “...Mən anladım ki, köhnə məktəb dağılmalıdır. Bu isə yalnız Uşinskinin yeni üsulla olan dərs kitabları kimi öz məktəbimiz üçün ana dilində dərs kitabları tərtib etməklə mümkündür”.

Maarifpərvər ədib zəngin mədəni irsə, maraqlı adət-ənənəyə malik Azərbaycan xalqının cəhalət və xurafat məngənəsində əzilməsinə laqeyd qala bilmir. Çıxış yolunu elmi biliklərin, maarif və mədəniyyətin yayılmasında, xalqın özünü dərk etməsində və öz gücünə inamında görür. Ona görə də bütün bilik və bacarığını xalqın maariflənməsi işinə, elmi və ədəbi yaradıcılığa həsr edir.



Qori seminariyasının müəllim və tələbələri: İkinci cərgədə soldan-sağa Əbdüləli bəy Muxtarov, Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli

R.Əfəndiyev Nuxa bölgəsi ətrafında – Xaçmaz kəndində yeni üsullu məktəb açır. Burada Azərbaycan və rus dillərini tədris edir. 1892-ci ildə Tiflisdəki müsəlman məktəbinə müəllim vəzifəsinə dəvət olunur. Eyni zamanda Qafqaz Müsəlmanları Ruhani İdarəsində katib müavini və müftinin “Ömər məktəbi”ndə müəllim işləyir. O, tanınmış rus pedaqoqu K.Uşinskinin pedaqoji görüşləri, A.Çernyayevskinin “Vətən dili” dərsliyi, xüsusilə dahi rus yazıçısı L.Tolstoyun “Əlifba”, “Yeni əlifba”, “Riyaziyyat” və “Oxu kitabı” ilə yaxından tanış olur. Eyni zamanda “uşaqların oxu və yazı prosesində qrammatik qaydalarla tanış olması prinsipi” əsasında “Uşaq bağçası” adlı yeni əlifba kitabını hazırlayır. L.Tolstoyun hekayə və məqalələrindən etdiyi tərcümələri də bu dərsliyə əlavə edir. Dərsliyi 1889-cu ildə İstanbulda kütləvi tirajla nəşr etdirir. İkinci dərsliyin – “Bəsirət-ül-ətfal” ədəbiyyat dərsliyinin üzərində böyük həvəslə çalışır. Ədəbi qiraət kitabı 1901-ci ildə Bakıda iki min nüsxə ilə nəşr edilir. İrəvan quberniyasında, bütün Qafqaz məktəblərində paylanır və mükəmməl dərslik kimi tədris olunur. Bu nəşr ədəbiyyat dərsliyi olsa da, məktəb uşaqlarının ensiklopedik məlumat kitabı kimi səciyyələndirilir.

Rəşid bəy Əfəndiyev müəllimliklə yanaşı, dərsdənkənar təşkil etdiyi ədəbiyyat dərnəyi və teatr truppası seminariyada canlanma yaradır. Tələbələrin ilk qələm təcrübələri vaxtaşırı müzakirə olunur. Azərbaycan və rus dillərində teatr tamaşaları göstərilir.

O, gənclərin zamanla ayaqlaşması, açıqfikirli və mübariz olması üçün yazdığı didaktik, nəsihətamiz hekayələrində, şeirlərində vətənə, ana dilinə, təbiətə məhəbbət, işgüzarlıq, xeyirxahlıq, dostluq duyğuları aşılayır. Görkəmli dramaturq, mütəfəkkir Mirzə Fətəli Axundzadənin komediyalarının təsiri altında yazdığı “Qan ocağı”, “Tiflis səfərləri”, “Saqqalın kəraməti”, “Qonşu qonşu olsa, kor qız ərə gedər”, “Pul dəlisi”, “Bir saç telin qiyməti”, “Qızılgül” və s. pyeslərində maarifçi təfəkkürün inkişafına dair ideallarını ifadə edib.

Maarifpərvər ədib sovet dövründə Şəki şəhərinə qayıdır. Burada oğlan və qız seminariyaları təşkil edir. Eyni zamanda Pedaqoji Məktəbin direktoru olur. Bir maarifçi kimi pedaqoji və ədəbi sahədə axtarışlarını davam etdirir. Azərbaycan I Ölkəşünaslıq Qurultayının nümayəndəsi və Etnoqrafiya Cəmiyyətinin Şəki şöbəsinin elmi katibi seçilir.

Görkəmli maarif xadiminin çox sayda dərs dediyi yetirmələri arasında milli mədəniyyət və elmimizin tanınmış alim və incəsənət xadimləri vardır. Azərbaycanın görkəmli musiqi xadimləri Üzeyir Hacıbəyli və Müslüm Maqomayev də R.Əfəndiyevin tələbələri olub.

Ömrünü xalqının maariflənməsi işinə həsr edən, fəaliyyəti gənc nəsil üçün bir örnək olan Rəşid bəy Əfəndiyev 1942-ci ildə 79 yaşında Şəkidə vəfat edib.

**Savalan Fərəcov**

# “Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri”

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri” adlı elmi sessiya keçirilib.

Elmi sessiyanı giriş sözü ilə açan AMEA-nın prezidenti İsa Həbibbəyli akademiyada “Heydər Əliyev İli” çərçivəsində geniş tədbirlər planının hazırlandığını diqqətə çatdırıb.

Akademik bildirib ki, Azərbaycanın təxminən yarıməsrlik dövrdə inkişafının əsası Heydər Əliyevin adı ilə bağlıdır. Bu baxımdan alimlərimiz də Ümummilli liderin həyatı və fəaliyyətinin dərindən öyrənilməsini, dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinin elmi tədqiqatlarda ictimaiyyətə çatdırılmasına öz töhfələrini verməlidirlər.

Akademiyanın bu xüsusda tədbirlər planından danışan İsa Həbibbəyli, həmçinin AMEA-nın “Heydər Əliyev İli”nə töhfəsi olaraq 2023-2024-cü illərdə nəşri nəzərdə tutulan “Heydər Əliyev Ensiklopediyası” sözlüyünün layihəsinin hazırlandığı barədə də məlumat verib.



Sessiyada Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin “Azərbaycan reallığında Heydər Əliyev epoxası”, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun “Müstəqillik dövrü nəsrində Heydər Əliyev”, filologiya elmləri doktoru Elnarə Akimovanın “Ədəbiyyatda azadlıq ideallarının intişarında Heydər Əliyevin rolu”, filologiya elmləri doktoru Əlizadə Əsgərlinin “Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət” və filologiya elmləri doktoru, professor Vüqar Əhmədin “Heydər Əliyev və Azərbaycan mətbuatı” mövzusunda məruzələri dinlənilib.

# BXA-da tələbə elmi-praktiki konfransı

Ümummilli lider Heydər Əliyevin 100 illiyi çərçivəsində 22-23 fevral tarixlərində Bakı Xoreoqrafiya Akademiyasında (BXA) tələbə elmi-praktiki konfrans keçirilib.



Konfransın ilk günü BXA-nın İncəsənət fakültəsinin tələbələri Azərbaycan rəqs sənətinin tarixi inkişaf yolu, milli rəqslərimizin yaranması, onların düzgün ifa tərzi və müxtəlif xoreoqrafik mövzular üzrə məruzələrlə çıxış ediblər.

“Sentimentalizmin parlaq nümayəndəsi İvan Valberx”, “Lev Tolstoyun əsərləri əsasında balet tamaşaları”, “Xoreoqrafiya sənətində din mövzusunun təzahürü”, “Azərbaycan rəqslərinin ifa tərzi”, “XX əsr Azərbaycan teatrının tərəqqisində Cəfər Cabbarlının rolu” və s. məruzələr dinlənilib.

Konfransın ikinci günündə isə BXA-nın orta ixtisas təhsili pilləsinin tələbələri Azərbaycanın görkəmli bəstəkarları və rəqs sənəti nümayəndələrinin yaradıcılığına müraciət edərək “Rəqs sənətinin quruluşu və xüsusiyyətləri”, “Qara Qarayevin balet yaradıcılığı”, “Üzeyir Hacıbəylinin yaradıcılıq irsi”, “F.Listin yaradıcılıq yolu”, “Yozef Haydnın yaradıcılıq fəaliyyəti” və s. məruzələrlə çıxış ediblər.

Konfransın sonunda məruzəçilərə sertifikatlar təqdim edilib.

# Musiqi sənəti üzrə nəzəriyyə imtahanı test üsulu ilə keçiriləcək

Dövlət İmtahan Mərkəzi (DİM) qabiliyyət tələb edən bəzi ixtisaslarda nəzəriyyə fənləri imtahanlarını test üsulu ilə keçirəcək.

DİM-dən verilən xəbərə görə, musiqi sənəti istiqaməti üzrə imtahanda abituriyentlərə musiqi nəzəriyyəsi və solfecio, harmoniya və solfecio, musiqi ədəbiyyatı fənləri üzrə tədris proqramı əsasında tərtib edilmiş hər bir fənnə aid 30 qapalı tipli test tapşırığı təqdim olunacaq.

Tapşırıqların cavablandırılması üçün musiqi nəzəriyyəsi və solfecio fənni üzrə 1 saat, harmoniya və solfecio, eləcə də musiqi ədəbiyyatı fənləri üzrə 1 saat 30 dəqiqə vaxt ayrılacaq.

Musiqi nəzəriyyəsi və solfecio, harmoniya və solfecio fənləri üzrə verilmiş 30 sualdan 25-i nəzəri biliklərin yoxlanılmasına, 5-i isə eşitmənin təyininə aiddir. Eşitmənin təyininə aid tapşırıqlar dinləmə qurğusu vasitəsilə təqdim ediləcək. Musiqi ədəbiyyatı fənni üzrə verilmiş 30 sualdan 20-si Azərbaycan, Qərbi Avropa və rus bəstəkarlarının həyat və yaradıcılığını, həmçinin müxtəlif bədii üslublara və dövrlərə aid biliklərin yoxlanılmasını əhatə edən tapşırıqlardan ibarət olacaq. 10 sual isə musiqi nümunələrinin təyin edilməsi üçün nəzərdə tutulub. Qiymətləndirmə 10 ballıq şkala üzrə aparılır. Hər bir fənn üzrə minimal müsabiqə balı 6 (16-18 doğru cavab) nəzərdə tutulub.

# “Harmoniya” – qrup sərgisi

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı və Bakıdakı Rus evinin dəstəyi ilə martın 6-da “Harmoniya” adlı qrup sərgisi keçiriləcək.

Bakıdakı Rus evinin sərgi salonunda açılacaq sərgi 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunub.

Statusundan və yaşından asılı olmayaraq qadın gözəlliyi, incəlik, mənəvi müdriklik və qadına diqqət hər zaman təsviri sənət ustalarının yaradıcılığında tərənnüm olunub.

“Harmoniya” adlı qrup sərgisi qadın təbiətini, kainatın ülvi gözəlliyini əsərlərində tərənnüm edən rəssamların yaradıcılığına diqqət çəkmək məqsədilə keçiriləcək.

Sərginin ekspozisiyasında 30-a yaxın müəllifin müxtəlif üslub və texnikalarda ərsəyə gətirdiyi 40-a yaxın rəngkarlıq, heykəltəraşlıq və bədii fotoqrafiya nümunələri, o cümlədən Azərbaycan Dövlət Rəsm Qalereyasının fondundan seçilmiş əsərlər nümayiş olunacaq.

# Elmi tədqiqatlar daha çox filologiya sahəsini əhatə edir

Hesabat dövrü ərzində 1115 nəfərin fəlsəfə doktoru, 213 nəfərin elmlər doktoru elmi dərəcəsi alması üçün 1328 müdafiə keçirilib.

Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev “2019-2022-ci illər ərzində Azərbaycan Respublikasının elmi müəssisə və təşkilatlarının, ali təhsil müəssisələrinin nəzdində fəaliyyət göstərmiş dissertasiya şuralarının fəaliyyətinin nəticələrinə dair” yığıncağında məlumat verib.

AAK sədri qeyd edib ki, ən çox filologiya elmləri sahəsində müdafiələr təşkil edilib. Bu sahə üzrə 260 müdafiə prosesi olub. Növbəti yerdə iqtisadi elmlər sahəsidir. Bu elm sahəsində 161 dissertasiya müdafiə olunub. Üçüncü yerdə olan tibb elmləri sahəsi üzrə də 157 müdafiə keçirilib.

# Sözün bitdiyi an rənglər danışır...

Əməkdar rəssam İsa Məmmədov 1956-cı ilin 5 martında Zəngəzur mahalının Qafan rayonunda dünyaya göz açıb. İncəsənətə kiçik yaşlarından həvəs göstərib, məktəb illərində rəssamlıq və musiqi ilə məşğul olub. Qarmon ifa etməyi məharətlə bacaran İsa bu sevgisinin keçici olduğunu, rəssamlığın ona daha yaxın, doğma olduğunu anlayır. Beləliklə, 1974-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olur.

İlk müəllimi olan Rəşid Heydərzadədən sənətin incəliklərini sevgi ilə mənimsəyir. 1979-cu ildə məktəbdə təhsilini başa vurur. Sonra bir müddət Moskvada da rəssamlıq dərsləri alır. Oradan qayıtdıqdan sonra 1982-ci ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəngkarlıq fakültəsinə daxil olur. Mikayıl Abdullayev, Nadir Əbdürrəhmanov, Böyükağa Mirzəzadə kimi böyük rəssamlardan dərs alır. Diplom müdafiəsi zamanı istedadlı rəssam zəhmətkeş kəndli qadınlar mövzusunu seçir. Kətan üzərində yağlı boya texnikası ilə “Lerik qadınları” adlı çoxfiqurlu kompozisiyasını ərsəyə gətirir. Kənd həyatı, üzərində tarixi geyimlərimiz olan qadınların obrazları əks olunan tablo müəllimləri tərəfindən çox bəyənilir. 1988-ci ildə ali təhsilini də tamamlayan rəssam daim yaradıcılıq axtarışında olaraq, müxtəlif miqyaslı sərgilərin iştirakçısına çevrilir.

İsa Məmmədovun əsərlərinə nəzər yetirdikdə onun yaradıcılığını səciyyələndirən ifadə tərzinin impressionizm üslubu ilə yaxınlıq təşkil etdiyini deyə bilərik. Yaradıcılığında zaman-zaman müxtəlif janrlara müraciət etsə də, daha çox mənzərəyə üstünlük verən rəssam bu janrda rəngarəng tablolar ərsəyə gətirir. Mənzərə janrı vasitəsilə o, əhatə olunduğu gerçəkliyi, təbiətdən ilhamlanaraq aldığı xoş təəssüratlarını sənətsevərlərə özünəməxsus bədii şərhlə çatdırır. Əsasən kətan üzərində yağlı boya texnikasında əsərlər yaradan rəssam işıq-kölgədən məharətlə istifadə edir.

Onun yaradıcılığını fərqləndirən ən önəmli xüsusiyyətlərdən birincisi Bakı mövzusuna xüsusi diqqət ayırmasıdır. Paytaxtımıza insanların görmədiyi baxış bucağından baxaraq təsvir etdiyi əsərlərinin mövzu sərbəstliyi, kompozisiya quruluşu, real həyata olan lirik, romantik baxışının canlı şahidi oluruq. Buna misal olaraq onun “Bakı mənzərəsi”, “Dənizkənarı Milli Park”, “Paytaxtın Nizami küçəsi”, “Payız” adlı mənzərə əsərlərini qeyd edə bilərik. Hər bir tablosunu fərdi müşahidələrinə və ilkin təəssüratlarına əsaslanaraq təsvir edir. Fəsillərin bir-birini əvəz etməsi ilə təbiətdə, açıq havada daim dəyişən rənglərin ahəngi rəssamı yeni əsərlər yaratmağa sövq edir. Rəssam rəngarəng koloriti vasitəsilə Bakının müxtəlif fəsillərdə olan yaddaqalan görüntüsünü yaratmağı üstün tutur. Şəhəri ilin müxtəlif vaxtlarında təsvir etdiyi “Bakı motivi”, “Vağzalyanı meydan”, “Fəvvarələr meydanı”, “Bakı. Bizim küçə”, “Bakı vağzalı” və s. kimi əsrlər bu qəbildəndir.





İsa Məmmədovun yurdumuzun dilbər guşələrindən biri olan Şəkinin ürəkaçan təbiətinə, əsrarəngiz gözəlliklərindən ilham alaraq təsvir etdiyi tabloları da diqqəti cəlb edir. Müəllif bu mənzərə əsərləri vasitəsilə Şəki təbiətinin füsunkarlığını əlvan palitrası ilə əks etdirməyə nail olur. Bu silsilədən “Şəki mənzərəsi”, “Şəki motivi”, “Şəki. Kiş kəndi” və s. əsərlərini qeyd etmək olar.

“Payız” adlı ilk fərdi sərgisini Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına qalereyasında təqdim edən rəssamın İstanbulda (2007), Almaniya paytaxtındakı Bakı-Berlin qalereyasında (2011) da sərgiləri gerçəkləşib. Əsərləri Türkiyə, Rusiya, Fransa, İtaliya, ABŞ və s. ölkələrdə şəxsi kolleksiyalarda saxlanılır. 2022-ci ildə “Əməkdar rəssam” fəxri adına layiq görülən İsa Məmmədov hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Rəngkarlıq kafedrasında pedaqoq kimi fəaliyyət göstərir. Azərbaycan Rəssamlar İttifaqının və UNESCO-nun nəzdindəki rəssamlar birliyinin üzvüdür.

**Ziyarət Cabarova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi, sənətşünas**

## Xatirə təqvimi — 4-7 mart

### Azərbaycan

**4 mart 1919** – Görkəmli aktyor, rejissor Hüseyn Məmməd oğlu Ərəblinski (Xələfov; 1881-1919) qətlə yetirilib. Azərbaycanın professional teatr sənətinin banilərindən biridir. “Müsəlman artistləri” cəmiyyətində, “Nicat” teatr cəmiyyətində çalışıb. 1916-cı ildə “Neft və milyonlar səltənətində” filmində Lütfəli bəy rolunu oynayıb.

**4 mart 1919** – Bakı milyonçusu, mesenat Ağamusa Nağıyev (1849-1919) vəfat edib. Bakıda memarlıq nümunələri olan binalar (AMEA-nın Rəyasət Heyəti (“İsmailyyə”), Dövlət Neft Şirkətinin köhnə binası, Üns teatrının binası və s.) inşa etdirib.

**4 mart 2013** – Prezident İlham Əliyev böyük səhnə ustası, SSRİ Xalq artisti Hökümə Qurbanovanın və Xalq şairi Nigar Rəfibəylinin 100 illik yubileyləri haqqında sərəncamlar imzalayıb.

**4 mart 2019** – Prezident İlham Əliyev opera müğənnisi, pedaqoq və teatr xadimi, Xalq artisti Hüseynqulu Sarabskinin 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**4 mart 2022** – Əməkdar rəssam, tanınmış heykəltəraş Albert Zaman oğlu Mustafayev (26.1.1931 – 2022) vəfat edib.

**5 mart 1910** – Əməkdar incəsənət xadimi, rejissor Səftər (Əlisəftər) Həbib oğlu Turabov (1910-1989) Bakıda doğulub. Akademik Milli Dram Teatrında işləyib, Azərbaycan Radiosunda radio tamaşaları hazırlayıb.

**5 mart 1919** – Teatr və kino aktyoru, kiçik rolların mahir ifaçısı Məmmədsadıq Qafar oğlu Nuriyev (1919 – 22.3.1975) Bakıda doğulub. Xalq artisti Yaşar Nurinin atasıdır. İrəvan Dövlət Azərbaycan Dram, Gəncə Dram, Musiqili Komediya teatrlarında çalışıb.

**5 mart 1925** – Şair, ədəbiyyatşünas İsmayıl Qəhrəman oğlu Cəfərpur (1925-1977) anadan olub.

**5 mart 1926** – Xalq rəssamı Cahangir Mahmud oğlu Rüstəmov (1926 – 13.2.2007) Şəki şəhərində anadan olub. Tarixi mövzuda əsərlər, məişət tabloları, mənzərələr, portretlər və natürmortların müəllifidir.

**5 mart 1936** – Görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, AMEA-nın müxbir üzvü Yaşar Vahid oğlu Qarayev (1936 – 25.8.2002) Şəkidə doğulub. AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru olub.

**5 mart 1947** – Ədəbiyyatşünas, yazıçı Vaqif Minad oğlu Arzumanlı (1947 – 9.7.2014) Qubada doğulub. Kitabları: “Dədə Qorqudun qəbrinin izi ilə”, “Mirzə Fətəli Axundzadə və Qərbi Avropa ədəbi-nəzəri fikri” və s.

**5 mart 1953** – Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, ədəbiyyatşünas Kamran İmran oğlu Əliyev (1953 – 23.12.2020) Naxçıvan MR Şərur rayonunun Diyadın kəndində anadan olub.

**5 mart 1956** – Şair Sabir Sarvan (Sabir Soltan oğlu Məlikov; 1956-2017) Ağsunun Pirhəsənli kəndində doğulub. “Gördüyüm göy üzü, baxdığım işıq”, “Özümü sözə çevirdim” və s. kitabların müəllifidir.

**5 mart 1970** – Əməkdar incəsənət xadimi, rəssam Reyhan İbrahim qızı Topçubaşova (15.12.1905 – 1970) vəfat edib. Portret (“M.Ə.Sabir”), mənzərə (“Mərdəkanın görünüşü”) janrlarında, məişət mövzusunda (“Köhnə bazar”, “Toy”) əsərlər, natürmortlar çəkib.

**6 mart 1920** – Ədəbiyyatşünas Yəhya Qasım oğlu Seyidov (1920-1980) Ordubadda anadan olub.

**6 mart 1922** – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu Azərbaycan əlifbasını latın yazı qrafikasına keçirilməsi ilə bağlı xüsusi komissiya (sədr Səməd Ağamalıoğlu) yaratmaq bərədə qərar qəbul edib. Komissiyanın bazasında 1922-ci ilin mayında Yeni Türk Əlifbası Daimi Komitəsi yaradılıb.

**6 mart 1931** – Əməkdar incəsənət xadimi, ədəbiyyatşünas, yazıçı Fərman Allahverdi oğlu Eyvazov (1931-1996) anadan olub.

**6 mart 1955** – Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, ictimai-siyasi xadim, publisist Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (31.1.1884 – 1955) Ankarada vəfat edib. Xalq Cümhuriyyətinin süqutundan (1920) sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib. “Azərbaycan şairi Nizami”, “Çağdaş Azərbaycan ədəbiyyatı” və s. əsərlərin müəllifidir.

**7 mart 1908** – Xalq rəssamı Salam Əbdülqasım oğlu Salamzadə (1908-1997) anadan olub. Azərbaycan modernizminin nümayəndələrindən biridir. Əsərləri: “Toxuculuq fabriki”, “Fermada qadın” və s.

**7 mart 1926** – Azərbaycan aşıq poeziyasını görkəmli nümayəndəsi Aşıq Ələsgər (1821-1926) vəfat edib. 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində doğulub. 1918-ci ildə qaçqınlıq taleyi yaşayıb, ömrünün sonuna yaxın doğulduğu kənddə qayıdıb və orada dünyasını dəyişib.

**7 mart 1926** – Şərqşünas, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Böyükağa Murtuza oğlu Hüseynov (1926-1983) Bakıda anadan olub.

**7 mart 1940** – Bakıda Azərbaycan rəssamlarının birinci qurultayı işə başlayıb. Qurultayda İsmayıl Axundov Azərbaycan Rəssamlar İttifaqı Rəyasət Heyətinin sədri, Mürsəl Nəcəfov məsul katib seçilib.

**7 mart 1945** – Xalq artisti Xuraman Abdulla qızı Hacıyeva (1945 – 15.2.2005) anadan olub. “Arşın mal alan” (1965), “Lətifə” və s. filmlərdə çəkilib. Gənc Tamaşaçılar, Naxçıvan Musiqili Dram teatrlarında işləyib.

**7 mart 1997** – Bakıda, Respublika Sarayında Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş təntənəli gecə keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

### Dünya

**4 mart 1678** – İtalyan bəstəkarı, skripkaçı, dirijor Antonio Vivaldi (Antonio Lucio Vivaldi; 1678-1741) Venesiyada doğulub. “İlin fəsilləri” (skripka üçün 4 konsert) əsəri ilə şöhrət qazanıb.

**4 mart 1908** – Rus yazıçısı Boris Nikolayeviç Polevoy (əsl soyadı Kampov; 1908-1981) anadan olub. “Əsl insan haqqında povest”i ilə məşhurdur.

**4 mart 1925** – Fransız bəstəkarı, aranjimançı, dirijor Pol Moria (Paul Mauriat; 1925-2006) anadan olub.

**5 mart 1922** – İtalyan rejissoru, yazıçı, şair Pyer Paolo Pazolini (Pier Paolo Pasolini; 1922-1975) anadan olub.

**5 mart 1934** – Türk kinorejissoru Halit Refiğ (1934-2009) anadan olub.

**6 mart 1475** – İtalyan rəssamı, Avropa İntibahının görkəmli sənətkarı Mikelancelo Buonarrotti (Michelangelo di Lodovico Buonarroti Simoni; 1475 – 18.2.1564) anadan olub. Rəssamlıqla yanaşı, heykəltəraş, memar, şair kimi də tanınıb.

**6 mart 1909** – Polyak satirik yazıçısı, şair, filosof Stanislav Yeji Les (Stanislaw Jerzy Lec; 1909-1966) anadan olub.

**6 mart 1928** – Kolumbiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1982) laureatı Qabriel Qarsia Markes (Gabriel Jose de la Concordia Garcia Marquez; 1928 – 17.4.2014) anadan olub.

**7 mart 1875** – Fransız impressionist bəstəkarı, XX əsr musiqisinin islahatçılarından Moris Ravel (Joseph Maurice Ravel; 1875-1937) anadan olub.

**7 mart 1924** – Yapon yazıçısı, dramaturq, ssenarist Kobe Abe (əsl adı Abe Kimifusa; 1924-1993) anadan olub.

**7 mart 1941** – Rusiyanın Xalq artisti Andrey Mironov (Menaker; 1941-1987) anadan olub.

**Hazırladı: V.Orxan**

# Musiqiçilərimiz ilk dəfə Vyanada akkordeon festivalında çıxış ediblər

Azərbaycan musiqiçiləri Avstriya paytaxtında keçirilən ənənəvi akkordeon festivalında ilk dəfə iştirak ediblər. Xalq artisti Ənvər Sadıqovun rəhbərlik etdiyi "Qaytağı" instrumental ansamblı festival çərçivəsində Vyana şəhərinin "Porgy & Bess" caz klubunda konsert verib.




24-cü Vyana Beynəlxalq Akkordeon Festivalı bu il 25 fevral – 26 mart tarixlərində keçirilir. Konsertdən öncə elan edilib ki, festival dünyanın müxtəlif ölkələrindən peşəkarları və yeni istedadları bir araya gətirir, bir ay boyunca Vyanada müxtəlif məkanlarda konsertlər təşkil edilir. Ölkəmizin ilk dəfə bu festivalda təmsil olunmasına, uğurlu əməkdaşlıq və dəstəyə görə təşkilatçılar adından Azərbaycan Mədəniyyət Mərkəzinə xüsusi təşəkkür elan edilib.

Vyanada musiqisevərlərin sevimli məkanlarından birində anşlaqla keçən konsertdə məşhur caz pianoçusu və bəstəkar, beynəlxalq müsabiqələr laureatı Emil Əfrasiyab da iştirak edib. Konsertdə Azərbaycan xalq və bəstəkar mahnıları əsasında hazırlanmış kompozisiyalarla yanaşı, Ənvər Sadıqov və Emil Əfrasiyabın müəllifi olduğu əsərlər də böyük maraqla qarşılanıb. Dahi bəstəkarlar Volfqanq Amadey Motsart və Üzeyir Hacıbəylinin əsərləri əsasındakı kompozisiya xüsusilə alqış doğurub. Eyni zamanda silahlı münaqişələr və təbii fəlakətlər zamanı həlak olmuş insanlara ithaf olaraq ifa edilən "Atama məktub" əsəri kövrək və duyğulu ab-hava yaradıb.

Azərbaycan milli musiqi alətlərində ifalar konsertə xüsusi rəng qatıb. Musiqi axşamına Qara Qarayev və Rauf Hacıyevin əsərlərindən ibarət kompozisiyalarla yekun vurulub.

Konsert "Porgy & Bess" caz klubunun canlı yayım portalı vasitəsilə yayımlanıb, eləcə də "Emap. fm" internet radio kanalı vasitəsilə səs yazısı olaraq qeydə alınıb.

# 53 il əvvəl Bakıda çəkilən film

## Rus evinin kinoklubunda müzakirə olunub

Bakıdakı Rus evinin (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi – RİMM) nəzdindəki fəaliyyət göstərən kinoklubda 53 il əvvəl "Lenfilm"də istehsal olunan və çəkilişləri Bakıda aparılan "Mənim xeyirxah atam" filminin müzakirəsi olub. Bu barədə RİMM-dən məlumat verilib.



Filmdə uşaq rollarını ifa etmiş Harri Məmmədov və Samir Musayev kinoklubun qonaqları olublar. Onlar filmin ərsəyə gəlməsi, çəkiliş meydançasında baş verən maraqlı hadisələr barədə danışıb, xatirələrini bölüşüblər.

1970-ci ildə rejissor İqor Usov tərəfindən Viktor Qolyavkinin eyniadlı povestinin motivləri əsasında çəkilən bədii filmin qəhrəmanı Petya Böyük Vətən müharibəsindən əvvəl Bakıda keçirdiyi xoşbəxt günləri, bəstəkar və dirijor olan, müharibənin ilk günlərindən cəbhəyə gedən və qayıtmayan atası, daim narahatlıq keçirən anası və kiçik qardaşı Bob haqqında xatirələrini bölüşür. Onun Bakı xatirələrinin bir hissəsi də azərbaycanlı dostları, o cümlədən İsmayılovlar ailəsindəki uşaqlardır.

Filimdə məşhur rus aktyorları Aleksandr Demyanenko (Petyanın atası), Lyudmila Qurçenko (Petyanın anası), eləcə də azərbaycanlı aktyorlar Rafiq Əzimov, Əminə Yusifqızı (İsmayılovlar ailəsində ata və ana), Əliağa Ağayev, Tələt Rəhmanov və başqaları, kütləvi səhnələrdə Bakı şəhəri 1 və 60 nömrəli məktəblərin şagirdləri çəkiliblər.




# Misəritmə zavodu UNESCO-nun ilkin siyahısında



Rusiya Federasiyası Başqırdıstan Respublikasının Meleuz rayonunda yerləşən Voskresensk misəritmə zavodunun binası beynəlxalq səviyyədə tanınmaq ərəfəsindədir. Tikili UNESCO-nun Dünya irsi üzrə ilkin siyahıya salınıb.

Bu barədə məlumatı sosial media hesabında paylaşan Başqırdıstan Respublikasının başçısı Radi Xabirov xatırladıb ki, bir müddət əvvəl köhnə Ural metallurgiya zavodunun ətrafındakı ərazi abadlaşdırılıb. Orada "Voskresensk zavodu Art-mərkəzi" ictimai məkanı yaradılıb. Bu obyektin yaxınlığında yerləşən və onunla vahid kompleks kimi qəbul edilən rəsm qalereyasının bərpa edilməsi də hökumətin planına daxildir.

Voskresensk misəritmə zavodunun binası 1745-ci ildə tikilib. Müəssisə 150 il işləyib və XIX əsrin sonlarında Karqali filiz yatağı tükəndikdən sonra bağlanıb.

**Gülcahan**

# Malayziyada Özbəkistanın islam irsini əks etdirən sərgi



Martın 1-də Malayziyanın paytaxtı Kuala-Lumpurda yerləşən İslam İncəsənəti Muzeyində "Özbəkistan – islam sivilizasiyasının mərkəzi" fotosərgisi açılıb. Özbəkistan Mədəniyyət və Turizm Nazirliyinin yaydığı məlumata əsasən, sərgidə son iki min il ərzində indiki Özbəkistan ərazisində inkişaf etmiş fərqli sivilizasiyalar üçün səciyyəvi artefaktlar, qədim və zəngin mədəni irs, islam tarixi haqqında məlumatlar və fotolar nümayiş etdirilir.

Həmçinin islamın Mərkəzi Asiyada yayılmağa başladığı vaxtdan indiyədək elmə, təhsilə və Səmərqənd, Buxara, Xivə, Daşkənd kimi qədim şəhərlərin memarlığına təsirini əks etdirilən materiallar sərgilənir. Sərgidə Böyük İpək yolundan keçən mədəniyyətlərarası əlaqələr, Maverannəhrin minillik tarixi və mədəniyyəti, özbək xalqının qədim adətləri, incəsənəti, memarlığı və həyat tərzinin bütün aspektləri ilə yaxından tanış olmaq imkanı var.




## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 192 il əvvəl...

**5 mart 1831-ci ildə** Lənkəranda Rusiya işğalı əleyhinə üsyan başlayıb. Devrildikdən sonra İrana qaçan Mirhəsən xan Lənkərana gələrək üsyana başçılıq edib. Talış (Lənkəran) xanlığı Gülüstan müqaviləsi ilə (1813) Rusiyaya birləşdirildikdən sonra 1826-cı ildə ləğv edilmişdi. Lənkəran üsyanı iki ay sürdü.

### 106 il əvvəl...



**6 mart 1917-ci ildə** Rusiyanın "Müvəqqəti hökumət"i Finlandiyaya muxtariyyət verib. Çar II Nikolay taxt-tacdan əl çəkəndən sonra bir neçə ay Rusiyanı idarə edən "Müvəqqəti hökumət" liberal siyasəti ilə tarixə düşdü. 1917-ci ilin Oktyabr inqilabından sonra hakimiyyəti ələ alan bolşeviklər də Finlandiyanın müstəqilliyi ilə barışmalı oldular. Finlandiya XVIII əsrin əvvəlində Şimal müharibəsi (Rusiya-İsveç) nəticəsində qismən Rusiyanın nəzarətinə keçmişdi.

### 100 il əvvəl...

**5 mart 1923-cü ildə** Azərbaycan SSR Xalq Komissarları Sovetinin (XKS) dekreti ilə Azərbaycan Foto-Kino İdarəsi yaradılıb. Sonrakı illərdə müxtəlif adlar altında fəaliyyət göstərib. 1940-cı ildə XKS yanında Kinematoqrafiya İşləri üzrə Komitə yaradılıb, 1946-cı ildə Kinematoqrafiya Nazirliyi adlandırılıb, 1953-cü ildə ləğv edilərək funksiyaları yeni yaradılan Mədəniyyət Nazirliyinə verilib. 1963-1988-ci illərdə yenə Kinematoqrafiya Komitəsi fəaliyyət göstərib, sonra yenidən onun səlahiyyətləri Mədəniyyət Nazirliyinə verilib.

### 90 il əvvəl...

**5 mart 1933-cü ildə** Adolf Hitlerin Nasional-Sosialist Partiyası Almaniya parlamentinə (Bundestaq) seçkilərdə yerlərin yarısını əldə edib. Bir qədər əvvəl prezident Qindenburq Hitleri kansler təyin edərək koalision hökumət qurmağı ona tapşırmışdı. Parlament seçkisində qələbə sayəsində Hitler kansler postunda möhkəmləndi, Qindenburq vəfat edəndən (1934) sonra isə özünü Almaniyanın mütləq rəhbəri – reyxsfürer elan etdi.

### 79 il əvvəl...

**6 mart 1944-cü ildə** SSRİ Xalq Komissarları Soveti "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" qərar qəbul edib. Qərarda Azərbaycan dilində ordu qəzeti nəşr etmək, Cənubi Azərbaycan yazıçı-şairlərinin əsərlərinin nəşri üçün Təbrizdə mətbəə açmaq, Azərbaycan Dövlət Dram Teatrının Cənubi Azərbaycan şəhərlərinə qastrolunun təşkili kimi məsələlər əksini tapmışdı.



### 70 il əvvəl...

**5 mart 1953-cü ildə** Sovet İttifaqını 31 il idarə etmiş İosif Vissarionoviç Stalin Kuntsevodakı (Moskva yaxınlığında) bağ evində vəfat edib. Stalin martın 2-də beyninə qansızması nəticəsində komaya düşmüşdü.

### 58 il əvvəl...

**7 mart 1965-ci ildə** Amerika dəniz piyadalarının desantı Cənubi Vyetnam sahillərinə çıxarılıb. ABŞ-nin Vyetnama qarşı müharibəsi başlayıb. Yeddi ilə yaxın sürən müharibədə amerikalılar istəklərinə nail ola bilmədilər və Vyetnamdan çıxmalı oldular.

### 31 il əvvəl...

**6 mart 1992-ci ildə** Azərbaycan Respublikası Ali Sovetinin Xocalı faciəsi ilə bağlı çağırılan fövqəladə sessiyasında Prezident Ayaz Mütəllibov istefa verməyə məcbur olub. Bir gün öncə spiker Elmira Qafarova da istefa vermişdi. Ali Sovetin sədri seçilən Yaqub Məmmədov prezident səlahiyyətlərini də icra etməyə başlayıb.

**Hazırladı: V.Orxan**

# Heydər Əliyev Sarayında "Gürcüstan atəşi"

## Rəqs tamaşası təqdim ediləcək

Gürcüstanın dünyaca məşhur rəqs kollektivi – "Kral Milli Baleti" Avropa və Amerikaya möhtəşəm qastroldan sonra – aprelin 21-də Bakıda, Heydər Əliyev Sarayında çıxış edəcək. Sarayın səhnəsində "Gürcüstan atəşi" rəqs tamaşası təqdim ediləcək.




"Gürcüstan atəşi" adlı xoreoqrafiya proqramı – ayrı-ayrı rəqs nömrələrindən seçmələr deyil, ümumi ideya və süjet xətti ilə birləşmiş bütöv tamaşadır. Bütün bunlar gözəl kostyumlar və möhtəşəm dekorasiyalarla ahəng təşkil edərək tamaşaçının diqqətini özünə çəkir. "Gürcüstan atəşi" tamaşaçıya gürcü mədəniyyəti ilə tanış olmaq və məftunedici rəqs aləminə səyahət etmək imkanı verən rəngarəng lirik şoudur.

"Kral Milli Baleti" 2008-ci ildə Gürcüstanda xoreoqraflar Gela Potshişvili və Maya Kiknadze tərəfindən yaradılıb. Gürcü milli rəqs ənənələrini qoruyub saxlayan ansambl novatorluğu və yüksək peşəkarlıq səviyyəsi ilə seçilir.

# Bakı Dövlət Sirkində "DZİVA" şousu

Bakı Dövlət Sirki "DZİVA" sirk şousu ilə yaz mövsümünə start verib.



Sirkin direktor vəzifəsini icra edən Nahid Ağayev proqramın ilk nümayişinin valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqlar, eləcə də şəhid, qazi ailələrinin uşaqları üçün təşkil olunduğunu bildirib.

Diqqətə çatdırılıb ki, şounun təşkilatçısı Monte-Karloda beynəlxalq sirk festivalının laureatı Allahverdi İsrafilovdur. Proqramda Monte-Karlo festivalının iştirakçıları, eləcə də "Cirque du Soleil"in (Dü Sale) səhnəsini fəth etmiş müxtəlif ölkələrin peşəkar sirk artistləri çıxış edirlər.

Parisdə sirk festivalında bürünc medal qazanan jonqlyor Pavel Rujilo, kloun sənətinin tanınmış simaları – Oleq fon Suvorov və Andrey Jiqalov dueti, həmçinin proqramın süjetinin əsasını təşkil edən təlimçi Rostislav Qavrılovun şir və pələnglərinin unikal çıxışları ilə bənzərsiz sirk şousu təqdim edilir.

Bundan başqa, uçuş gimnastlar qrupunun qeyri-adi fəndləri, təşkilatçı Allahverdi İsrafilovun məhz bu proqram üçün hazırladığı "Inna&Darya" duet nömrəsi də şouya xüsusi rəng qatır.

Proqramda Bakı Dövlət Sirkinin artisti Günay Nuriyevanın "Kauçuk qız" adlı nömrəsi maraq doğuracaq.

Qeyd edək ki, yeni yaz proqramı aprelin 30-dək həftənin şənbə və bazar günləri tamaşaçıların ixtiyarında olacaq.

# Cəmi 1,79 milyon kvadrat kilometr qalıb

## Antarktidada buz təbəqəsi azalır...

2023-cü ilin fevralında Antarktidada (Yer kürəsinin cənub qütbündəki materik) buz təbəqəsinin səviyyəsi 45 illik tarixi minimuma enib. Bu barədə ABŞ-ın Milli Qar və Buzlaqlar Data Mərkəzi məlumat yayıb.

Məlumatda bildirilir ki, buz təbəqəsinin səviyyəsi peyk ölçmələrinin aparılmağa başladığı 45 ildə ən aşağı səviyyəyə çatıb və fevral ayında ümumi sahəsi 1,79 milyon kvadrat kilometr olub.

Mərkəz bildirir ki, buz təbəqəsinin əriməsi hər yayda baş verir, qışda isə bərpa olur. Lakin son iki ildə qışda bu bərpa prosesi müşahidə olunmur.

Ümumiyyətlə, son illər Antarktidada havanın temperaturunun yüksəlməsi müşahidə olunur. İki il əvvəl Şərqi Antarktidada yerləşən Eymer şelf buzlağının peykdən çəkilmiş şəkillərini analiz edən alimlər bu yerdə 2019-cu ilin qışında görünən gölün yoxa çıxdığını görüblər. Həmin gölə yay vaxtı qar suyu yığılırdı. Tədqiqatçıların fikrincə, su kütləsi buz qatını deşərək okeana axıb. NASA peykinin çəkdiyi şəkillərin analizi göstərib ki, gölün yerində kraterə bənzəyən, sahəsi təqribən 11 kvadrat kilometr olan, səthi parçalanmış buzlarla örtülü çökəklik qalıb.

Hidroyarılma prosesi kiçik şelf buzlaqlarının dağılmasına tez-tez səbəb olur. Lakin belə miqyasda – qalınlığı təqribən 1400 metr olan Eymer buzlağındakı hidroyarılma ilə alimlər ilk dəfə qarşılaşıblar.

Antarktidada havanın temperaturunun yüksəlməsi ilə bəzi şelf buzlaqlarında güclü əriməbaş verir və proqnoz modelləri göstərir ki, bu tendensiya davam edəcək. Tədqiqatçıların fikrincə, şelf buzlaqlarının səthindəki qar suları onların dağılmasına səbəb olursa, sonda bu, dəniz səviyyəsinin artmasına gətirib çıxaracaq.

**V.Kamal**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 623
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641